RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 18 (8897) CÜMƏ AXŞAMI, 27 yanvar 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Bir ildə 3 min mənzil, 164 avtomobil, 45 min şəxsə 50 min növ xidməti fəaliyyət...

## İlham Əliyevin qlobal böhran şəraitində təsdiqlədiyi sosial dəstək proqramı real nəticələr verir

**Dövlətlərin demokratiklik əmsalı təkcə sosial-iqtisadi inkişaf göstəriciləri ilə deyil, həm də hakimiyyətin xalqa xidmət səviyyəsi, cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqliyi ilə müəyyənləşir.**

Xalqın böyük etimad göstərərək mandat verdiyi hakimiyyət fəaliyyəti ilə daim ictimai maraqları doğrultmağa, hər bir vətəndaşın mənafeyinə hesablanan siyasi-hüquqi və sosial-iqtisadi islahatları həyata keçirməklə böyük rəğbət qazanır. Yəni hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsinin təşkili və daxili siyasətin sosialyönümlülüyünü ön planda saxlamasıdır.

### Şəhid ailələrinin, qazilərin sosial təminatı hər zaman prioritetdir

İki ildir bəşəriyyəti çətin sınaqla üzüzə qoyan qlobal böhranla mübarizəyə baxmayaraq, Azərbaycanda bir dənə də olsa sosial layihə təxirə salınmayıb. Bu da bir daha təsdiqləyir ki, dövlət siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır. Bunu Prezident İlham Əliyevin sosial sahədə gerçəkləşdirdiyi islahatlar da bir daha təsdiqləyir. Təkcə postmüharibə dövründə reallaşan sosial layihələrə nəzər yetirsək, buna şahidlik edərik.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, Prezidentin sosial islahatları çərçivəsində prioritet məsələ ilk növbədə şəhid ailələrinin və müharibə əlillərinin mənzillə təminatı proqramının icrası olub. Ötən il bu kateqoriyadan olanlara 3 min mənzil verilib. Postmüharibə dövründə bu kateqoriyadan olan 45 min şəxsə 50 min növ xidmət göstərilib. Şəhid ailəsi üzvləri olan 7942 şəxsə 15,841 sosial ödəniş, 2515 müharibə iştirakçısına əlillik və sosial ödənişlərin təyinatı həyata keçirilib. Mənzil proqramı 5 dəfə genişləndirilib və 2021-ci ildə bu kateqoriyadan olan şəxslərə 3 min mənzil verilib. 184 hərbçi son nəsil 193 yeni protezlə, 1200 müharibə əlili 13 minə yaxın reablitasiya vasitəsi ilə təmin olunub. 1500-ə yaxın şəhid ailəsi üzvü və müharibə iştirakçısı işlə təmin edilib. Şəhid ailələri üzvləri, müharibə iştirakçıları, erməni terrorundan zərər çəkən şəxslər daxil olmaqla 10 minədək şəxsin məşğulluğuna dəstək göstərilib, o cümlədən 6 minədək şəxs özünüməşğulluq proqramına cəlb edilib, 4 minədək şəxs işlə təmin olunub.

Göründüyü kimi, İlham Əliyevin sosial siyasətinin prioriteti şəhid ailələrinin, müharibə əlillərinin problemlərinin həlli, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır.

Ötən illərə nəzər yetirsək, aydın şəkildə görərik ki, bu sosial proqramlar ildən-ilə daha da genişlənir. Məsələn, şəhid ailələri və müharibə əlillərinə 2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572 mənzil və fərdi ev təqdim edilib.

Prezidentin 2021-ci il 25 yanvar tarixli sərəncamı ilə bu kateqoriyadan olanlara 2021-2025-ci illərdə 11 min mənzil və ya fərdi evin verilməsinin nəzərdə tutulması proqramın daha da genişlənməsinə imkan verib. Bunun nəticəsi olaraq 2021-ci ildə üç il əvvələ nisbətən 5 dəfə çox olmaqla şəhid ailələrinə və müharibə əlillərinə 3 min mənzilin verilməsi proqramı icra olunub. Həmçinin əlillərin avtomobillə təminatı da uğurla davam edir. Bu günədək 7400 müharibə əlilinə avtomobil verilib. Ötən il isə daha 164 nəfər müharibə əlili minik avtomobili ilə təmin olunub.

Ardı 3-cü səh.

# Dövlət qurumları KİV-lə əlaqələri genişləndirir

## Bu işdə MEDİA onlara dəstək verir

Azərbaycanda jurnalistlərin uzun müddət gileyləndiyi məsələ dövlət qurumlarından məlumat ala bilməmək olub. Dövlət orqanları isə mətbuatdan ən çox jurnalistlərin işıqlandırdıqları sahənin xüsusiyyətlərini bilməmələrindən və verilən məlumatların yanlış olmasından narazılıq ediblər. Bu məsələ barədə tərəflər bir-birini günahlandırıblar.

Son dövrdə bu sahədə ciddi dönüş yaranıb. Xüsusilə Medianın İnkişafı Agentliyinin dövlət qurumları ilə səmərəli əməkdaşlığı əvvəllər mövcud olmuş narazılıqların aradan qaldırılmasına mühüm töhfə verir. Agentlik təkcə Dövlət Gömrük Komitəsi ilə jurnalistlərlə komitə arasında olan əlaqələri gücləndirmək məqsədilə 5 tədbir keçirib. Lənkəranda bu il 24-25 yanvarda "Gömrük sistemində islahatlar: nəticələr, perspektivlər" mövzusunda keçirilən təlim tədbirinə 40-a yaxın müxtəlif media qurumunun nümayəndəsi dəvət edilmişdi.

Ardı 5-ci səh.

# Hasilat da, istehlak da, ixrac da artır

## İndi dünya Azərbaycanı həm də qaz təchizatçısı kimi tanıyır

**2021-ci ildə Azərbaycanda qaz hasilatı ondan əvvəlki ilə nisbətən 18,1 faiz artaraq 43,9 milyard kubmetrə çatıb. İl ərzində eləcə də mavi yanacağın ölkə daxilində istehlakı və onun xaricə ixracı artıb.**

Ötən il ölkəmizdə 13 milyard kubmetrə yaxın təbii qaz istehlak olunub. Bu da 2020-ci illə müqayisədə 8,4 faiz çoxdur. İstehlak göstəricilərinin artması ölkə üzrə qazlaşdırmanın 96,2 faizdən 96,3 faizə çatdırılması, həmçinin karbamid gübrəsinin istehsal həcminin 3 dəfəyə qədər çoxaldılması ilə bağlıdır. Belə ki, SOCAR təbii qazdan xammal kimi istifadə ilə metanol və karbamid gübrəsi istehsal etməklə onun əlavə dəyərini bir neçə dəfə artırır.

Mavi yanacağın istehlakı daha da artacaq. Çünki ölkə ərazisində hələ qazlaşdırılmayan yaşayış məntəqələri az deyil. Onların sayı təxminən 900-dür. Həmin məntəqələrin bir qisminin qazlaşdırılması texniki-iqtisadi cəhətdən səmərəsizdir. Yeni yaşayış massivlərinin qazla təmin olunması isə mərhələli şəkildə aparılır. Bu iş "Azəriqaz"ın daxili imkanları hesabına həyata keçirilir.

Cari ildə 110 yaşayış massivinin qazlaşdırılması nəzərdə tutulur. Qazlaşdırma hər il artım dinamikası ilə gerçəkləşdirilir. Xatırladaq ki, son 10 ildə 1675 yaşayış məntəqəsi qazlaşdırılıb.

Qazın həm ölkə daxilində istehlakının, həm də xaricə ixrac olunmasının artmasına ilk növbədə artan istehsal imkan verir. "Şahdəniz" yatağının hasilata başlaması son illər Azərbaycanı dünyada qaz ixrac edən ölkə kimi də tanıdıb. Yataqdan alınan mavi yanacağın hasilatı ilə yanaşı, satışı da artır və 2021-ci ildə ixrac marşrutları daha da genişlənib. Belə ki, 2020-ci il dekabrın 31-də "Cənub qaz dəhlizi"nin son seqmenti olan TAP (Trans-Adriatik Qaz Boru Kəməri) istifadəyə verilib və Azərbaycan qazını Avropaya çatdırıb.

Ardı 3-cü səh.

# Yollar Ağdama aparır



**Ağdamdayıq...**

**Qarabağın bəyaz damlı, yenidən ağ günlərinə qanad açan qədim və əzəmətli şəhərində...**

**Tanış, doğma küçələrlə pərvanələr kimi illərin həsrətlisi olduğumuz Ağdamın başına dolanırıq...**

Körpə uşaqlar kimi sevinir, hər daşa, ağaca əlimizi sürtür, tanış bir iz, məhrəm bir nişanə axtarırıq... Xoşbəxtlik gülüşü qonur üzümüzə, elə gülə-gülə gözlərimizdən yaş süzülür. Bu sevinc damlaları Ağdamın cadarlanmış torpağına sığal çəkir, qurumuş otlarını sulayır, kəsilmiş ağaclarının gövdəsinə məlhəm olur...

Yer sevinir, göy şadlanır...

Yolumuzu İmarətdən salırıq, Şahbulağa çıxırıq... Bir daha, bir daha gözüdolusu Ağdama baxırıq... Ətirli havasını ciyərlərimizə çəkirik, dəli bir kükrəyiş qopur sinəmizdən...

Səsimiz, avazımız gəldikcə hayqırırıq: - Ağdam, doğma Ağdam, biz gəlmişik!

Ardı 3-cü səh.

# "Gizli Omikron" peyda olub və sürətlə yayılmağa başlayıb

**"SARS-CoV-2"nin ən sonuncu növü olan "Omikron"un sürətlə yayılması səbəbindən dünya üzrə koronavirusa həftəlik yoluxma sayında rekord göstəricinin təzələnməsi pandemiyanın gedişatının yenidən gərginləşdiyini göstərir.**

Ötən həftə ərzində yoluxmanın artması nəticəsində dünyada indiyədək koronavirusa yoluxanların sayı 352,7 milyon nəfərə, virusdan ölüm hallarının sayı isə 5,6 milyona çatıb.

Ötən həftə ərzində aşkar edilmiş yoluxma hallarının sayı əvvəlki 7 günlə müqayisədə 5, ölüm halları isə 1 faiz artıb. Yoluxma hallarının əksəriyyəti ABŞ-da qeydə alınıb. Növbəti yerlərdə Hindistan, Braziliya, Fransa və Böyük Britaniya qərarlaşıb. Ən çox ölüm hadisəsi də ABŞ-da, daha sonra Braziliya, Hindistan, Rusiya və Meksikada qeydə alınıb.

Ümimilikdə isə dünyada yoluxanların sayında ən çox artım Şərqi Aralıq dənizində (39 faiz), Cənub-Şərqi Asiyada (36 faiz) və Avropada (13 faiz) müşahidə edilib. Avropada bir həftə ərzində yoluxanların sayı 10 milyon nəfəri ötüb ki, bu da dünyadakı bütün yeni yoluxma hallarının 47 faizini təşkil edir. Koronavirusdan ölüm halları Cənub-Şərqi Asiyada (44 faiz) və Şərqi Aralıq dənizində (15 faiz) daha da artıb.




Azərbaycanda da yeni ştama yoluxanların sayında çoxalma müşahidə edilir. Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi əhaliyə müraciətində bir daha nəzərə çatdırıb ki, koronavirusun yeni ştamına yoluxanların sayında artım davam edir. Lakin test nəticəsi müsbət çıxmış şəxslərin xəstəxanaya yerləşdirilməsi halları eyni dinamika ilə inkişaf etmir. Rəsmi qurumlar buna baxmayaraq, vətəndaşlara yeni ştamdan qorunmaq üçün ikinci dozadan və yaxud xəstəliyə yoluxub sağaldıqdan 5 ay sonra gücləndirici ("buster") doza ilə peyvənd olunmağı tövsiyə edirlər.

Ardı 6-cı səh.

# Ermənistanda daxili qarşıdurma daha gərgin mərhələyə keçir

Paşinyan hakimiyyətinin getdikcə gücləndiyi Ermənistanda insan haqlarının pozulması daha geniş vüsət almağa başlayıb. Hakimiyyət ona qarşı bütün etirazları güc, təzyiq və həbslərlə susdurmağa çalışır.

Bunun nəticəsidir ki, siyasi baxışlarına, hakimiyyətə qarşı səsləndirdiyi tənqidi fikirlərinə görə həbsə atılanların sayı durmadan artır. Daha bir problem isə həbsdə olan insanların hüquqlarının kobud şəkildə pozulması, onların müxtəlif zorakılıqlara, təhqirlərə məruz qalmalarıdır.

İki il əvvəl erməni siyasətçilər xəbərdarlıq edirdilər ki, Paşinyanın dövlət sistemini sökmək, dağıtmaq, "özününküləşdirmək" və ələ keçirmək cəhdi ölkənin İnsan Hüquqları Müdafiəçisi İnstitutuna da çatacaq. "Past" nəşri yazır ki, ötən gün Nikol Paşinyan 68 "nikol" ilə (deputatları nəzərdə tutur - red.) birlikdə Kristine Qriqoryanı ombudsman "təyin edə" bildi: "Fakt faktlığında qalır ki, bu yolla Paşinyanın növbəti arzusu, yəni daha bir qurumu dağıtmaq, məhv etmək reallığa çevrilir. Üstəlik, bu qurum azsaylı qurulmuş strukturlardan biri olan institutdur. Bu strukturun formalaşmasında, ən azı bir hissəsi istisna olmaqla, Ermənistanın bütün ombudsmanlarının öz töhfələri və xidmətləri olub. Nə qədər qəribə səslənsə də, hətta indiki ədliyyə naziri Karen Andreasyan da uğursuz ombudsman sayıla bilməz".

Qeyd olunur ki, Arman Tatoyan insan hüquqları müdafiəçisi üçün müstəqil qurum kimi elə bir meyar qoyub ki, onu saxlamaq çox çətin olacaq. Amma hakimiyyətin məqsədi o izi saxlamaq deyil, əksinə, onu sona qədər məhv etməkdir ki, nəticədə hüquq müdafiəçisi Nikola bağlı struktura çevrilsin. İndi belə olacağı göz qabağındadır.

Ardı 6-cı səh.

# Sankt-Peterburqda Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş "Yeddi gözəl" sərgisi açılıb və Üzeyir bəy Hacıbəylinin abidəsinin təməl daşı qoyulub







Yanvarın 26-da Sankt-Peterburqdakı "Mərmər" sarayda Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş "Yeddi gözəl" sərgisi açılıb.







AZƏRTAC xəbər verir ki, sərginin ekspozisiyası bir neçə tarixi dövrü birləşdirən xalça, zərgərlik, bədii metal, miniatür və teatr-dekorasiya sənətinin, həmçinin klassik musiqi və rəqsin, müasir incəsənətin və deklamasiya layihəsinin sintezindən ibarətdir.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov sərginin açılışında çıxış edərək bildirib ki, mədəni əlaqələr xalqların yaxınlaşmasında ən qısa yoldur. "Bizim ölkələri çoxəsrlik dostluq, qardaşlıq, mehriban qonşuluq ənənələri birləşdirir. Biz bu qarşılıqlı münasibətləri ildən-ilə möhkəmləndirməyə çalışırıq. Dövlətlərimizin başçıları nümunəvi qarşılıqlı münasibətləri ilə humanitar sahə də daxil olmaqla, bütün istiqamətlərdə əməkdaşlığın gücləndirilməsinə töhfə verirlər", - deyə Anar Ələkbərov vurğulayıb.

Prezidentin köməkçisi xatırladıb ki, Heydər Əliyev Fondunun ilk nümayəndəliklərindən biri məhz Rusiyada yaradılmışdı. "Fond təhsil, səhiyyə, ekologiya sahələri də daxil olmaqla bir çox layihələr həyata keçirib. Lakin bu layihələrin böyük hissəsini mədəniyyət sahəsindəki layihələr təşkil edir", - deyə Anar Ələkbərov qeyd edib.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxışında möhtəşəm sərginin təşkilinə görə Heydər Əliyev Fonduna, habelə Rus Muzeyinin və Azərbaycan Milli Xalça Muzeyinin rəhbərliyinə təşəkkürünü bildirib.

Rus Muzeyinin baş direktorunun müavini vəzifəsini icra edən Qriqori Qoldovski deyib ki, sərgidə tətbiqi incəsənət əsərləri, videoinstallyasiyalar, nadir miniatürlər, toy bəzəkləri və başqa eksponatlar təqdim edilib. Bu sərgi Nizami Gəncəvi dövründən və onun yaradıcılığının xüsusiyyətlərindən xəbər verən Şərq mədəniyyətinin orijinal rəngarəngliyini göstərir.

Nizami poeziyası əsrlərboyu bir çox sənətkarların yaradıcılığına təsir edib. Klassik əsərə çevrilən diqqətəlayiq əsərlərdən biri də görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin "Yeddi gözəl" baletidir. Balet məşhur "Xəmsə" poemalarından biri əsasında yazılıb. Bu əsər ilk dəfə 1956-cı ildə Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində nümayiş etdirilib.

Bu iki - ədəbi və musiqi-xoreoqrafiya mənbələrin əsasında sərginin ekspozisiyasında dekorativ-tətbiqi incəsənətin qiymətli eksponatlarının nümayişi üçün xüsusi mühit yaradılıb. Azərbaycanlı məşhur konseptualist-rəssam Rəşad Ələkbərovun "kölgələrdən rəsmlər" metodu ilə XVI əsrə aid "Kitab oxuyan gənc" adlı Təbriz miniatürü əsasında yaratdığı "miniatür" installyasiyası bu mühitə giriş kimi xidmət edir.

Layihənin konsepsiyası vizual və səsli obrazların vahid qavrayışını nəzərdə tutur. Videoinstallyasiyalar sayəsində tamaşaçının gözləri qarşısında cərəyan edən hadisələrdə şəxsən iştirak etməsi effekti yaranır. Məsələn, qədim əlyazma kitablarının təsvir edildiyi videoinstallyasiyalarında miniatürlərin personajları sanki canlanır, tamaşaçını öz sehirli dünyalarına dəvət edir. Tamaşaçı bu canlanmış orta əsr kitabını vərəqlədikcə, dəbdəbəli saray binaları arasında gəzişdikcə balet məkanına düşür: Kainatın ucsuz-bucaqsız məkanlarından peyda olan rəqqasə-balerinalar onu əhatə edirlər.

Heydər Əliyev Fondu və İCOM-un Azərbaycan Milli Komitəsi tərəfindən təşkil edilmiş "Nizami: dildən-dilə" beynəlxalq onlayn-deklamasiya layihəsinin videoçarxı sərginin interaktiv davamıdır. Bu hissədə Azərbaycan, Rusiya, Özbəkistan, Qazaxıstan və Qırğızıstanı təmsil edən 150-dən çox məşhur incəsənət və mədəniyyət xadimi Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından fraqmentləri estafet prinsipi ilə deklamasiya edirlər.

Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyinin və Azərbaycan Milli Xalça Muzeyinin dəstəyi ilə təşkil edilmiş "Yeddi gözəl" sərgisinin ekspozisiyasına Heydər Əliyev Fondunun, Azərbaycan Milli Xalça Muzeyinin və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eksponatları daxildir.

Sərgi mayın 9-na qədər davam edəcək.

Sankt-Peterburqda həmçinin dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin abidəsinin təməl daşının qoyulması mərasimi keçirilib.

Abidə Bəstəkarlar küçəsində, Üzeyir bəy Hacıbəylinin adını daşıyan bağçada Heydər Əliyev Fondunun və Sankt-Peterburq hökumətinin dəstəyi ilə qoyulacaq.

Təntənəli mərasimdə Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, səfir Polad Bülbüloğlu, Sankt-Peterburqun vitse-qubernatoru Anatoli Poveliy, Qanunverici Məclisin sədrinin müavini Marina Şişkina, Vıborq rayonu administrasiyası başçısının müavini Arina Artyomova, Sankt-Peterburqdakı Azərbaycan diasporunun sədri Vaqif Məmişov və digər fəxri qonaqlar iştirak ediblər.

Təbrik sözlərindən sonra təməl daşının rəsmi açılışı olub, mərasim iştirakçıları təməl daşının önünə tər çiçəklər qoyublar.

Qeyd edək ki, abidənin müəllifi heykəltaraş, Rusiya Rəssamlar Akademiyasının akademiki Aydın Zeynalov olacaq.

# Azərbaycan Ombudsmanı ATƏT-in tədbirində Ermənistan nümayəndəsinin iddialarına tutarlı cavab verib

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva ATƏT-in Azərbaycanın sədrliyi ilə keçirilən Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumunda Ermənistan nümayəndə heyətinin üzvünün əsassız arqumentlərinə tutarlı cavab verib.



Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Səbinə Əliyeva bütün beynəlxalq humanitar hüquq normaları və insan hüquqlarına zidd şəkildə Ermənistanın qəsdən qadağan olunmuş "SCUD", "Smerç", "İsgəndər-M" və digər ballistik raketlərdən, kasetli bombalardan istifadə etməklə mülki əhalinin sıx yaşadığı şəhər və rayonları intensiv şəkildə bombardmana məruz qoyduğunu, nəticədə mülki şəxslər arasında ölüm və yaralanma hallarının, habelə kütləvi dağıntıların baş verdiyini bildirib.

Ombudsman müharibə zamanı və sonrakı dövrlərdə müharibədən zərər çəkmiş ərazilərə baş çəkərək, Ermənistanın törətmiş olduğu müharibə cinayətlərinin nəticələri ilə yerində tanış olduğunu, bu cinayətlərin qurbanları ilə görüşdüyünü, beynəlxalq humanitar hüquq normalarının pozulması faktlarının bilavasitə şahidi olduğunu vurğulayıb.

O, habelə Ermənistanın 1992-ci il fevralın 26-da mülki şəxslərə qarşı insanlıq tarixində misli görünməmiş Xocalı soyqırımını törətdiyini, nəticədə çox sayda mülki şəxslərin, o cümlədən qadın, uşaq və qocaların amansızcasına etnik zəmində qətlə yetirildiyini forum iştirakçılarının diqqətinə çatdırıb.

Ombudsmanın müharibə dövründə erməni hərbi əsirlərə baş çəkərək onların saxlanma şəraiti ilə tanış olduğu, fərdi qaydada qəbul etdiyi, müraciətlərini dinlədiyi, onların ailə üzvləri ilə həm telefon, həm də məktub vasitəsi ilə əlaqə saxlamalarına yardım edildiyi, öz dillərində hüquq və azadlıqları ilə bağlı qanunvericilik aktlarının təqdim olunduğu, lakin Ermənistan Ombudsmanının Ermənistanda saxlanılan azərbaycanlı hərbi əsir və girovların vəziyyətləri ilə bir dəfə də olsun maraqlanmadığı tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Ombudsman Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində itkin düşmüş şəxslərin taleyi ilə bağlı indiyədək onların ailə üzvlərinə məlumat verilməməsinin beynəlxalq humanitar hüquq normalarına zidd olduğunu, bununla Ermənistan tərəfinin ailə həyatına hörmət hüququnun, habelə münaqişə tərəflərinin itkin düşmüş şəxslərin axtarışı, onlarla bağlı məlumatların mübadiləsi sahəsində əməkdaşlıq etmək öhdəliyini pozduğunu qeyd edib.

S.Əliyeva Ermənistanın 30 il ərzində işğal altında saxlanılmış Azərbaycan torpaqlarında kütləvi şəkildə minalama prosesi həyata keçirdiyini, Ermənistan tərəfinin hələ də dəqiq mina xəritələrini verməkdən boyun qaçırmasının beynəlxalq humanitar hüquq pozuntusu olduğunu vurğulayıb.

# Azərbaycanın müdafiə nazirinin İrana rəsmi səfəri davam edir

**İran İslam Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizin İrandakı səfirliyini ziyarət edib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Zakir Həsənov səfirliyin inzibati binasında Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla anıb.

# İran Prezidenti Azərbaycanın müdafiə nazirinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Yanvarın 26-da İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi bu ölkədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, İran Prezidenti Seyid İbrahim Rəisi xalqlarımızın əsrlərboyu mehriban qonşuluq şəraitində yaşadığını, Azərbaycan-İran ikitərəfli münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini diqqətə çatdırıb.

Ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin önəmini vurğulayan İran Prezidenti dostluq və qardaşlıq münasibətlərinin qarşıdakı illərdə də uğurla inkişaf edəcəyinə əminliyini bildirib.

Qonaqpərvərliyə görə minnətdarlığını bildirən general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin salamlarını Prezident Seyid İbrahim Rəisiyə çatdırıb.

Müdafiə naziri Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qələbəmizdən sonra azad edilmiş ərazilərimizdə görülən işlər barədə məlumat verib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində inkişafından məmnunluq ifadə olunub, qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

# Xarici işlər nazirləri arasında telefon danışığı olub

Yanvarın 26-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Pakistan İslam Respublikasının xarici işlər naziri Məhdum Şah Mahmud Qureşi arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə yüksək səviyyədə inkişafını məmnunluqla qeyd ediblər. Həm ikitərəfli, həm də çoxtərəfli platformalarda əməkdaşlığın uğurla həyata keçirildiyi vurğulanıb. Nazirlər iki ölkə arasında ötən il ərzində həm Xarici İşlər nazirlikləri səviyyəsində, həm də digər qurumlar arasında həyata keçirilən təmasların intensivliyini məmnunluqla bildiriblər. Cari ildə iki qardaş ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Tərəflər Azərbaycan-Pakistan Hökumətlərarası Birgə Əməkdaşlıq Komissiyasının ötən ilin dekabr ayında Bakıda keçirilən iclasına istinad edərək, əməkdaşlıq münasibətlərinin bütün sahələr üzrə genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Nazirlər həmçinin ötən il dekabrın 19-da İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının Əfqanıstandakı humanitar vəziyyətlə bağlı İslamabadda keçirilən növbədənkənar iclasının nəticələri barədə fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı xarici işlər naziri Məhdum Şah Mahmud Qureşi azərbaycanlı həmkarını İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının İslamabadda keçiriləcək növbəti 48-ci iclasına dəvət edib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələləri müzakirə ediblər.

# Milli Məclisdə sosial məsələlərlə bağlı dinləmələr keçiriləcək

Yanvarın 26-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin 2022-ci ilin yaz sessiyasında ilk iclası keçirilib. İclası açan komitənin sədri Musa Quliyev deputatlara qarşıdan gələn sessiyada uğurlar arzulayaraq iclasın gündəliyi barədə məlumat verib.

Komitə sədri gündəliyin birinci məsələsi olan 2021-ci ilin payız sessiyası ərzində Əmək və sosial siyasət komitəsində görülən işlərin hesabatını təqdim edərək bildirib ki, komitənin hesabat dövründə keçirilən 15 iclasında 21 qanun layihəsinə baxılıb. Qanun layihələrinin hamısı Milli Məclisin plenar iclasına tövsiyə edilib və parlament tərəfindən qəbul olunub.

Hesabat dövründə komitəyə 970 sənəd, o cümlədən vətəndaşlardan 822 ərizə, nazirliklərdən və idarələrdən 148 cavab məktubu daxil olub. Vətəndaşların müraciətləri araşdırılıb və müvafiq tədbirlər görülüb. Komitə sədri və üzvləri sessiya dövründə karantin qaydalarına uyğun olaraq vətəndaşlarla qəbul keçirib və seçicilərlə görüşüblər.

Sonra Əmək və sosial siyasət komitəsinin 2022-ci ilin yaz sessiyası dövrünə dair iş planı haqqında məlumat verən komitə sədri Musa Quliyev bildirib ki, "Məşğulluq haqqında" qanuna əlavə və dəyişiklik edilməsi iş planına salınıb. Həmçinin "Əmək pensiyaları sahəsində aparılan islahatlar: nəticələr, çətinliklər və perspektivlər" mövzusunda və "Tütün istifadəsinin məhdudlaşdırılması haqqında" qanunun icrası vəziyyəti barədə dinləmələrin keçirilməsi nəzərdə tutulub.

Əmək və sosial siyasət komitəsi sədrinin müavini Məlahət İbrahimqızı, komitə üzvləri Jalə Əliyeva, Vüqar Bayramov, Sevinc Hüseynova, İlham Məmmədov, Arzu Nağıyev, Aqil Məmmədov və Əziz Ələkbərov çıxış edərək müzakirə edilən sənədlərlə bağlı fikirlərini bildiriblər. Deputatlar ötən sessiyada komitənin məhsuldar fəaliyyət göstərdiyini, komitə üzvlərinin qanunvericilik fəaliyyəti ilə yanaşı, seçicilərin, xüsusən də şəhid ailələri və qazilərin qayğıları ilə yaxından maraqlandıqlarını qeyd ediblər.

Qarşıdakı sessiyada iş planı ilə bağlı fikirlərini bildirən komitə üzvləri dinləmələrin mövcud problemlərin ortaya çıxarılmasında və həlli yollarının axtarılmasında əhəmiyyətini vurğulayıblar, pandemiyanın məşğulluğa təsiri, qeyri-formal əmək münasibətlərinin rəsmiləşdirilməsi, şəxs vəfat edərkən onun pensiya kapitalının taleyi, əlillik və əlilliyin təyinatı məsələləri ilə bağlı rəylərini səsləndiriblər.

Müzakirələrə yekun vuran komitə sədri sosial sahənin həssas olmasından bəhs edib, bu istiqamətdə Azərbaycanda böyük işlər görüldüyünü vurğulayıb. Bu məsələlərə düzgün yanaşmağın vacibliyinə diqqət çəkən Musa Quliyev dövlətin sosial siyasətinə deputatların verə biləcəyi dəstəyə də toxunub.

Sonda komitənin 2021-ci ilin payız sessiyası dövründə gördüyü işlər barədə hesabatı məqbul hesab edilib və 2022-ci ilin yaz sessiyası üçün iş planı təsdiqlənib.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Regionda kommunikasiyaların açılması üzrə yaradılmış üçtərəfli işçi qrupu özünü doğruldub

"Azərbaycan, Rusiya və Ermənistanın Baş nazirlərinin müavinləri səviyyəsində regionda kommunikasiyaların açılması üzrə yaradılmış üçtərəfli işçi qrupu özünü doğruldub".

AZƏRTAC xəbər verir ki, bunu Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov yanvarın 26-da keçirdiyi mətbuat konfransında deyib.

"Üçtərəfli işçi qrupunun formatı çox səmərəli oldu, ortaq dil tapıldı. Danışıqlar yaxşı, peşəkar şəkildə gedir. Biz Rusiyada Azərbaycan Prezidenti İlham Əliyevin regionda vəziyyətin və iqtisadi əlaqələrin normallaşması ilə bağlı səsləndirdiyi mövqeləri yüksək qiymətləndiririk, bu da bütün tərəflər üçün faydalı olacaq", - deyə səfir vurğulayıb.

O, qeyd edib ki, ötən il noyabrın 26-da Soçi şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında baş tutan üçtərəfli görüş bu qrupun işinə əlavə təkan verdi. Səfir bildirib ki, üçtərəfli işçi qrupunun məqsədi birgə infrastruktur təşəbbüslərinin parametrlərinin müəyyənləşdirilməsini ən qısa zamanda başa çatdırmaq, Cənubi Qafqazda nəqliyyat və logistika layihələrinin icrasına başlamaqdır.



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan



# Bir ildə 3 min mənzil, 164 avtomobil, 45 min şəxsə 50 min növ xidməti fəaliyyət...

*Əvvəli 1-ci səh.*

## Hər bir addımını xalqın mənafeyinə uyğun atan Prezident

Bütün bunlar 18 il ərzində Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulan İlham Əliyevin idarəçilik fəlsəfəsinin əsasını təşkil edir.

Hər bir addımını xalqın mənafeyinə uyğun atması, xalqına sədaqəti cənab İlham Əliyevə ümumxalq sevgisi qazandırıb. Prezidentin qlobal pandemiyanın gərgin dövrlərində böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı fərman və sərəncamlar, iqtisadi və struktur islahatları, regionlara səfəri zamanı rəsmi protokoldan kənara çıxaraq vətəndaşların problemləri ilə maraqlanması, səbirlə onları dinləməsi, arzu və istəklərini nəzərə alması, mehriban təmasları İlham Əliyevin Prezident kimi üzərinə götürdüyü öhdəliklərə sadiqliyinin, dövlət başçısı kimi qayğıkeşliyinin, səmimiliyinin bariz təcəssümüdür.

Son illərdə sosial sahədə inqilabi islahatlar sosial ödənişlərin ciddi şəkildə artırılmasına imkan verib. 2019-cu ildə əməkhaqları və digər sosial ödənişlər orta hesabla 100 faiz, bəzi sahələrdə daha çox artıb, yeni sosial təminat növləri, təqaüdlər, müavinətlər təsis olunub. 2019-cu ilin sosial ödəniş artımları üçün dövlət büdcəsindən illik əlavə vəsait olaraq 3 milyard manat ayrılıb. 2020-2021-ci illərdə yeni sosial islahatlar mərhələsi olub. COVID-19 pandemiyasının məşğulluğa və sosial rifaha mənfi təsirlərinin qarşısının alınması üçün sosial dəstək proqramları icra olunub. Postmüharibə dövründə şəhid ailələrinin, müharibə əlillərinin təqaüdlərində ciddi, orta hesabla 60 faiz artımlar edilib, yeni təqaüd növləri təsis olunub.

## Elə bir sahə yoxdur ki, əməkhaqqında, pensiya və təqaüddə artım olmasın

Əməkhaqqında ciddi artımlara uyğun olaraq 2020-ci ilin əvvəlindən pensiyalar indeksləşdirilərək 16,6 faiz, 2021-ci ilin əvvəlindən 11,4 faiz artırıldı və bu artımlar 1 milyon 100 min pensiyaçını əhatə etdi. Ümumilikdə 2018-2021-ci illərdə sosial təminat növləri, yeni pensiya, müavinət, təqaüd, ünvanlı dövlət sosial yardımı üzrə illik xərclər 2,4 milyard manat və ya 60 faiz artırılaraq 6,4 milyard manata çatdırıldı.

2018-2021-ci illərdə orta aylıq əməkhaqqında 37 faiz, median əməkhaqqı 74 faiz, əmək müqavilələrinin sayı 400 minə yaxın artıb.

Ötən il pensiyalarda da artım oldu. İlin əvvəlindən pensiyaların sığorta hissəsi 11,4 faiz indeksasiya edilərək artırıldı. 2021-ci ildə pensiyaların orta aylıq məbləği 9 faiz artaraq 331 manata, yaşa görə pensiyaların orta aylıq məbləği 8 faiz artaraq 358 manata çatdı. Ümumilikdə isə son üç ildə pensiyaların orta aylıq məbləği 60 faiz artıb.

Prezidentin ötən il imzaladığı "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı bu sahədə islahatların uğurla davam etdirilməsinə real imkan yaratdı və islahatların növbəti mərhələsi reallaşdı. İllik əlavə 1,5 milyard manat vəsaiti nəzərdə tutan yeni islahatlar paketi 2,1 milyon insanı əhatə etdi.

Yeni islahat paketi çərçivəsində minimum aylıq əməkhaqqı 20 faiz artaraq 250 manatdan 300 manata çatdı. Həmçinin müəllimlərin və digər təşkilatlarda işləyənlərin əməkhaqları 20-40 faiz aralığında artırıldı. Eyni zamanda əlilliyi olan şəxslərin müavinətləri I dərəcə üzrə 150 manatdan 220 manata, II dərəcə üzrə 130 manatdan 180 manata, III dərəcə üzrə 110 manatdan 120 manata çatdırıldı.

Beşdən çox uşağı olan qadınlara (hər uşağa görə) müavinət 55 manatdan 70 manata, aztəminatlı (ünvanlı sosial yardım alan) ailələrdəki 1 yaşadək uşaqlara aylıq müavinət 55 manatdan 70 manata yüksəldi. Uşağın anadan olmasına görə birdəfəlik müavinət 200 manatdan 300 manata, dəfn üçün birdəfəlik müavinət 300-dən 350 manata qaldırıldı.

20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar şəhidlərin ailələrinə və 20 Yanvar əlillərinə birdəfəlik maddi yardım edildi. Bu kateqoriyaya aid ümumilikdə 333 nəfərin hər birinin bank hesabına 200 manat məbləğində birdəfəlik maddi yardım köçürüldü. Qeyd edək ki, digər sosial ödənişlərdə artımlar edildiyi kimi, birdəfəlik maddi yardımın məbləği də ötən ilə nisbətən 2 dəfə artırılıb.

İşləməyən pensiyaçı elmlər və fəlsəfə doktorları üçün 2021-ci ilin əvvəlindən təqaüd təsis olunub. Elmlər doktorları üçün bu təminat 200 manatdan 300 manata, fəlsəfə doktorları üçün 120 manatdan 200 manata, "Xalq" fəxri adı üçün 150 manatdan 180 manata, "Əməkdar" fəxri adı üçün 100 manatdan 120 manata çatdırılıb.

Ümumilikdə əməkhaqqı və digər sosial ödənişlərin artımı üçün 2019-cu ildəki islahatlar üzrə illik əlavə 4 milyard manat, 2020-ci ildəki islahatlar üzrə illik əlavə 600 milyon manat, 2022-ci ildə isə yeni islahatlar üzrə illik əlavə 1,5 milyard manat, son üç ildə əməkhaqqı və digər sosial ödənişlərin artırılması üçün yalnız dövlət vəsaitləri hesabına əlavə olaraq illik 6 milyard manat ayrılıb.

## Vətəndaşın gələcəyinə hesablanmış qətiyyətli siyasətin təzahürü

Ölkə əhalisinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi hər zaman Prezident İlham Əliyevin apardığı siyasətin başlıca prioritetlərindən olub. Dövlət başçısının ötən 18 ili əhatə edən fəaliyyətinin təhlili göstərir ki, o, sosial məsələlərin həllinə həmişə xüsusi maraqla yanaşıb, aztəminatlı ailələrin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına davamlı dəstək göstərib. İmzaladığı fərman və sərəncamlar əsasında pensiya, ünvanlı sosial yardım, əlilliyə görə müavinətlərin verilməsi və məşğulluq sahələrində şəffaflığın və sosial ədalətin tam təmin olunması ilə bağlı mühüm addımlar atılıb.

Dünyada çox az ölkə tapılar ki, sosial siyasətin təzahür formalarının müxtəlifliyinə görə Azərbaycanla müqayisə oluna bilsin. Sosial-iqtisadi sahədə ardıcıl şəkildə islahatlar aparan dövlətlər sırasında ölkəmizin adı öndədir. Azərbaycanın iqtisadi uğurları sosial sahədə inqilabi islahatların gerçəkləşməsini şərtləndirib. Bir tərəfdən düşünülmüş və ardıcıl olaraq həyata keçirilən islahatların nəticəsi, digər tərəfdən isə İlham Əliyevin cəsarətli, inamlı addımları ölkə vətəndaşlarının gələcəyinə hesablanmış qətiyyətli siyasətinin təzahürüdür desək, yanılmarıq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***







# Yollar Ağdama aparır

*Əvvəli 1-ci səh.*

## Bakı-Ağdam marşrutu



Bəli, Azərbaycan xalqı illərdir həsrətində olduğu möcüzə anlarını yaşayır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qəhrəman Azərbaycan Ordusu qarış-qarış Vətən torpaqlarımızı azad edərək milyonlarla məcburi köçkünə doğma yurda qayıdış xoşbəxtliyi, bütün xalqımıza zəfər sevinci və qüruru ərməğan edib. İndi biz o doğma yurdlara sərbəst şəkildə səfərlər edir, həsrətini çəkdiyimiz Vətənin görüşünə yollanırıq.

Yanvarın 24-dən Bakı-Şuşa-Bakı avtobus reysi ilə yanaşı, Bakı-Ağdam-Bakı müntəzəm avtobus marşrutu da istifadəyə verilib. Prezident İlham Əliyevin tapşırığına əsasən, hər bir azərbaycanlı bundan sonra müntəzəm həyata keçiriləcək avtobus reysləri vasitəsilə doğma Ağdam şəhərinə səfər edəcək. Sözügedən avtobus reysi həftədə iki dəfə həyata keçiriləcək. Marşrut xətlərinə bilet satışı onlayn qaydada "Yolumuz Qarabağa" portalı vasitəsilə həyata keçirilir.

Sözügedən tarixdə saat 06:30-da Bakıdan yola çıxan ilk sərnişin avtobusu Ağdama yetişib və sərnişinlər böyük sevinc və həyəcan hissi ilə doğma yurdumuza qədəm basıblar...

Qarşılanma mərasimindən sonra sərnişinlər Ağdam Cümə məscidində dua edib, İmarət kompleksi və Şahbulaq qalası ilə tanış olub, Dram Teatrının qalıqlarına baxıb, Şəhidlər xiyabanını ziyarət ediblər. Sərnişinlər torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının ruhuna dualar oxuyublar.

## Sərnişinlər sevinc və həyəcan hissi ilə doğma yurda qədəm qoyublar

Səfər təəssüratlarını bölüşən sərnişinlərin hər biri fəxrlə söyləyib ki, erməni barbarlarının yer üzündən silmək istədiyi, işğaldan azad ediləndən sonra görənlərin dəhşətlə "Qafqazın Xirosiması" adlandırdıqları Ağdamda Azərbaycan dövlətinin qısa müddətdə həyata keçirdiyi genişmiqyaslı tikinti, abadlıq-quruculuq işləri heyrət doğurur, qürur hissi yaradır.

Xatırladaq ki, ötən ilin mayında Qarabağın təməl daşı Prezident İlham Əliyev tərəfindən məhz Ağdamda qoyulub və dövlət başçısının özünün də dediyi kimi, bunun rəmzi mənası var. Elə həmin gün Ağdamın baş planının da təqdimatı olub. Bütövlükdə 100 min nəfər üçün nəzərdə tutulan Ağdam şəhərinin ərazisi işğaldan əvvəlki ərazi ilə müqayisədə iki dəfədən çox artırılır. Artıq şəhərdə yaşayış binasının, 1 nömrəli məktəbin, Qələbə və İşğal muzeylərinin əsası qoyulub. Ən əlamətdar məqamlardan biri isə Ağdamın baş planında "Qarabağ" Universitetinin yaradılmasının da nəzərdə tutulmasıdır ki, bu da Ağdamın həm də elm-təhsil, innovasiya mərkəzi olacağından xəbər verir.

Düzdür, hələ də Ağdamda erməni barbarlarının törətdikləri vəhşi əməllərin, talanların, dağıntıların izlərini əks etdirən ərazilər, tikililər mövcuddur və ora səfər edən hər bir kəsdə vandal düşmənə qarşı qəzəb hissi oyadır.

Amma artıq mənfur düşmənin murdar ayağı dədə-baba torpaqlarımızdan bilmərrə silinib atılıb və indi bu yerlərdə həyat yenidən dirçəldilir, azad olunan digər ərazilərimizdə olduğu kimi, Ağdamın da yeni növrağı başlayır.

## Gerçəyə çevrilən dualar

Ağdamdayıq...

Qarabağın bəyaz damlı qədim sarayında...

Bir qərinə əvvəldə olduğu kimi, yenə də Cümə məscidində səf-səf düzülmüşük, ürəyimizdən keçən dualarla üz tutmuşuq Tanrı dərgahına:

- "Şükürlər olsun sənə, İlahi, bizə bu doğma torpaqlara, əziz Ağdama yenidən qədəm basmağı nəsib etdiyin üçün..."

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Hasilat da, istehlak da, ixrac da artır

## İndi dünya Azərbaycanı həm də qaz təchizatçısı kimi tanıyır

*Əvvəli 1-ci səh.*

TAP infrastrukturu ilə artıq 8 milyard kubmetrdən çox qaz təhlükəsiz nəql olunub. İl ərzində mavi yanacağın Cənubi Qafqaz Boru Kəməri ilə Gürcüstana, Bakı-Tbilisi-Ərzurum və TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) xətləri ilə Türkiyəyə nəqli də davam edib.

Prezident İlham Əliyev bu il yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində qeyd edib ki, Azərbaycan etibarlı təchizatçıdır. Ölkəmiz uzun illər ərzində neft sahəsində və indi artıq həm də qaz sahəsində etibarlı tərəfdaş kimi tanınıb.

"Cənub qaz dəhlizi"nin əhəmiyyətini, bəlkə də, indi Avropada daha çox görürlər. Çünki bu qaz böhranı bunları böyük dərəcədə sarsıtdı - həm qiymətlər, həm qazın qıtlığı, həm qaz anbarlarının dolu olmaması. Qış təzə başlayır və gözlənilir ki, qış çox sərt olacaq. Ona görə qazın çatışmazlığı böyük fəsadlara gətirib çıxaracaq. Azərbaycan qazının həcmi o qədər də böyük deyil, amma bir neçə ölkə üçün bu, həlledici ola bilər və əlbəttə ki, ilk növbədə burada bizim maraqlarımız təmin olunur. Çünki əgər bu kəmər çəkilməsəydi, biz zəngin qaz ehtiyatlarının üstündə, necə deyərlər, oturacaqdıq, nəyi isə gözləyəcəydik. Əgər bu perspektiv olmasaydı, heç bir şirkət milyardlarla, on milyardlarla dollar vəsaiti bu yataqların işlənməsinə qoymazdı. Hazırda ixrac artır, yeni rəqəmlər mənə təqdim edildi", - deyə dövlət başçısı vurğulayıb.

Bu il Azərbaycanda 45 milyard kubmetr qazın hasil olunması və həmin həcmin 19 milyard kubmetrinin ixrac edilməsi gözlənilir. Prezident bunun böyük həcm olduğunu və bizə həm öz tələbatımızı ödəməyə, həm də Avropa məkanına daha çox mavi yanacaq ixrac etməyə imkan verdiyini bildirib: "Məhz bizim bu layihəmiz eyni zamanda Avropa ölkələri arasındakı interkonnektorların, bağlantıların tikintisinə də rəvac verdi və indi orada bu sahədə də işlər görülür. Beləliklə, fiziki olaraq, yeni infrastruktur nöqteyi-nəzərindən biz qazımızı başqa ölkələrə də çatdıra bilərik, nəzərə alsaq ki, "Şahdəniz"in çox böyük potensialı var".

Gələcəkdə "Abşeron" qaz yatağı istismara veriləcək. "Ümid", "Babək", "Şəfəq-Asiman" kimi yataqlarımız tədricən hasilata başlayacaq və Azərbaycan qazının həcmi xeyli artacaq. Bu, bizim böyük üstünlüyümüzdür. Çünki ölkəmizin həm maddi vəsaiti artacaq, həm də beynəlxalq imkanları genişlənəcək və təbii ki, Avropa İttifaqı-Azərbaycan əlaqələrində həmin faktor bundan sonra da mühüm rol oynayacaq.

Qeyd edək ki, cari ildə Azərbaycandan ixrac üçün nəzərdə tutulan təxminən 19 milyard kubmetr təbii qazın 8 milyard kubmetrdən çoxu Türkiyəyə, 7 milyard kubmetrdən çoxu isə İtaliyaya çatdırılacaq. Qalan qaz həcmləri Gürcüstan, Bolqarıstan və Yunanıstana nəql olunacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# REGİONLAR



## Ötən il Ağdamda arıçılara 52,3 min manat subsidiya ödənilib

Ağdam rayonunda 286 təsərrüfatçı arıçılıqla məşğul olur. Hazırda rayonun arıçılıq təsərrüfatlarında 5236 arı ailəsi var. Dövlətin bu sahəyə göstərdiyi qayğı, eləcə də hər arı pətəyinə görə subsidiya ayrılması arıçılığa marağı artırıb.



Bu barədə AZƏRTAC-a Ağdam Dövlət Aqrar İnkişaf Mərkəzindən məlumat verilib. Qurumdan bildirilib ki, Nazirlər Kabinetinin təsdiq etdiyi "Arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə subsidiya verilməsi Qaydası"na uyğun olaraq, ötən il Ağdam rayonunda arıçılıqla məşğul olan təsərrüfatçılara dövlət büdcəsinin vəsaiti hesabına hər arı ailəsinə 10 manat hesabı ilə 52 min 360 manat subsidiya ödənilib.

## Azərbaycanda pambığın alış qiyməti növbəti dəfə artırılıb

Azərbaycanda şirkətlər tərəfindən fermerlərdən pambığın alış qiyməti hər tona görə 50 manat artırılıb. Trend-in məlumatına görə, bunu kənd təsərrüfatı naziri İnam Kərimov deyib.



O qeyd edib ki, fermerlərdən pambıq alan şirkətlər alış qiymətini 50 manat artırmaq qərarına gəliblər.

"Pambığın hər tonunun alış qiyməti 700 manat idi. Şirkətlər 2022-ci il mövsümü üçün qərara gəlib ki, qiyməti 50 manat artırsınlar. Hazırda şirkətlərin qərarı pambıq alışının 750 manat olması ilə bağlıdır, amma biz qərara gəlmişik ki, avqust ayında qiymətlərə bir də baxaq.

Ümid edirik ki, avqust ayında şirkətlər fermerləri bir daha sevindirəcək, ancaq bu məsələ birjalarda olan vəziyyətdən asılı olacaq", - deyə nazir bildirib.

O qeyd edib ki, bu il hər ton pambığa görə 170 manat məhsul subsidiyası da ödəniləcək.

## Şabran fındığının xaricdə də alıcısı var

**Şabran şimal bölgəsində iqtisadi potensialına görə seçilən rayondur. Həm dağlıq, həm də aran əraziyə malik olması Şabranda kənd təsərrüfatının bütün sahələrini inkişaf etdirməyə imkan verir.**



Rayonda meyvə bağları 3130 hektardan artıqdır. Fındıq bağları son bir neçə ildə genişləndirilərək 1014 hektarı keçib. Onun 840 hektarı pay, 123 hektarı həyətyanı torpaq sahələridir. Yeni salınan fındıq bağlarına subsidiyalar fermerlərin bu sahəyə marağını artırıb. Dəniz səviyyəsindən 200 və 1500 metr yüksəklikdə əkilən fındığın satışı da çətin deyil. Bu gün Şabran fındığı Türkiyə, Rusiya və Ukrayna kimi ölkələrə daşınır.

Onu da bildirək ki, təkcə ötən il Zöhrab kəndində onlarca hektarda yeni fındıq bağları salınıb. Rayonun Uqah kəndində İmanverdi İmanovun saldığı 6 hektarlıq fındıq bağı sualtı ərazidə yerləşdiyindən daha sürətlə inkişaf edir. Fermer bildirir ki, elə dədə-babadan həyətlərində fındıq becəriblər: "2019-cu ildə dövlət başçısının sərəncamı ilə yeni bağların salınmasına başlananda mən də dövlətdən subsidiya götürərək işə başladım. Hazırda bağımızda ağacların becərilməsi texniki qaydalara uyğun aparılır".

Rayon fermerləri badama da üstünlük verirlər. 150 hektardan artıq badam bağlarından götürülən məhsul keyfiyyətinə görə fərqlənir. Həm də burada hər ağacdan 18-21 kiloqram badam yığmaq mümkündür.

Ağalıq inzibati dairəsinin Söhbətli kəndində fermer Elvin Paşayevin yeni saldığı 23 hektar badam bağı da məhsuldarlığı ilə seçilir. Bağçılıq sahəsində geniş təcrübəyə malik olan fermer əkilən ağaclara böyük qayğıkeşliklə yanaşır. Özünün dediyi kimi, ruzimizi çəkilən zəhmətdən götürürüksə, gərək vicdanla işləyək, çünki bu şəraiti bizə dövlətimiz yaradıb.

Şabranda 635 hektar ərazidə tərəvəz yetişdirilir. Bu sahədə çalışanlar il boyu becərmə ilə məşğuldurlar. Pomidor və xiyar sahələri damcı üsulu ilə suvarılır. Qənaət edilən su kələm və noxudun yetişdirilməsinə yönəldilir. Bu gün ölkənin bazarlarında satılan noxudun da çox hissəsi şabranlı fermerlərin əməyinin məhsuludur.

Rayonda üzümçülük də sürətlə dirçəldilir. Hazırda Şabranda 340 hektar üzüm sahəsi mövcuddur. Bunun 121 hektarını texniki sort təşkil edir. "Təbrizi", "Mirəndi", "Ağ şanı" və "Qara şanı" kimi üzüm sortları isə alıcıların həvəslə aldıqları süfrə üzümləridir. Söz düşmüşkən bildirək ki, Şabranda şimal bölgəsinin iri loqistik mərkəzi (soyuducu anbarı) fəaliyyət göstərir. Alma, nektar və armud bağlarında yetişdirilən meyvələr həmin soyuducu anbarlarda qışa saxlanılır.

Heyvandarlıq da iqtisadi baxımdan sərfəli sahə hesab edilir. Qoyunçuluq şabranlıların dədə-babadan gələn məşğuliyyətləridir. Rayonun elə bir kəndi yoxdur ki, orada qoyunçuluq təsərrüfatları olmasın.

Rayonda bu gün 25 min baş qaramal var. Camışlar bir neçə ailəfermer təsərrüfatlarında bəslənilir. Bir neçə kənddə camışçılıq üçün şərait yaxşı olduğundan onların bəslənilməsində çətinlik yoxdur. Həm də uzun illərdir ki, həmin kəndlərdə bir təcrübə formalaşıb. Hətta ətraf rayonlardan bu kənddəki fermer təsərrüfatlarının təcrübəsini öyrənmək məqsədilə onlara müraciət edənlər var.

Şabranda bir neçə iri heyvandarlıq kompleksi də fəaliyyət göstərir. Onlardan biri Aygünlü kəndində yerləşən "KFT MK" kompleksidir. Orada 112 baş cins mal saxlanılır. 44 baş mal Belarusdan gətirilib. 7 aydan artıq müddətdə həmin cins mallara qulluq olunur. Həmin inəklərin hər biri gün ərzində 25-30 litrə yaxın süd verir. Kompleksin daxilində mal-qaranın yetişdirilməsi üçün hər şərait var. Yetişdirilən qarğıdalı silos şəklində heyvanlara verilir. Şirəli yemlər südün tərkibini yaxşılaşdırır, yağlılığını artırır.

Təkcə bu təsərrüfatda onlarca insan iş yerləri ilə təmin edilib. Rayonda isə belə komplekslərin sayı az deyil.

Şabranda bir neçə yerdə baytarlıq aptekləri fəaliyyət göstərir. Bu gün sahibkar öz mal-qarasının sağlamlığının qorunması üçün dərman dalınca artıq paytaxta üz tutmur. Hətta iri təsərrüfatların öz baytar həkimləri də var.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Şəhidlər unudulmur

**Sumqayıtda musiqi məktəbinin nümayəndələri şəhid ailəsinə baş çəkiblər.**

Sumqayıt Regional Mədəniyyət İdarəsinə tabe olan Q.Qarayev adına 1 nömrəli uşaq musiqi məktəbinin kollektivi Vətən müharibəsi şəhidi Əlizamin Valeh oğlu Mustafalının ailəsinə baş çəkib.

Şəhid Ə.Mustafalı 1997-ci il sentyabrın 1-də Sumqayıt şəhərində anadan olub. O, 2020-ci il sentyabrın 29-u könüllü olaraq müharibəyə yollanıb. Şəhidimiz Hadrut-Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edərək, oktyabrın 21-də şəhidlik zirvəsinə ucalıb.

Əlizamin ölümündən sonra "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub.

## Goranboyda kəhrizlər bərpa edilir

Ölkədə su çatışmazlığından əziyyət çəkən rayonlardan biri də Goranboydur. Demək olar ki, rayon camaatı hər il istər əkin sahələrinin suvarılmasında, istərsə də içməli suya olan tələbatının ödənilməsində problemlərlə üzləşirlər.





Problemin aradan qaldırılması məqsədilə hər il rayonun kənd və qəsəbələrində yeni subartezian quyuları qazılaraq istifadəyə verilir ki, bu da suya olan tələbatı qismən ödəyir. Lakin rayonda yeni su mənbələrinin əldə olunması istiqamətində də tədbirlər görülür.

Elə bu yaxınlarda rayon ərazisində olan və istismara yararsız vəziyyətə düşmüş kəhrizlərin üzə çıxarılması və bərpası üçün işlərə başlanılmışdır. Bərpa işləri Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyi tərəfindən Cənubi Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) maliyyə dəstəyi ilə reallaşan layihə çərçivəsində həyata keçirilir.

Beynəlxalq Miqrasiya Təşkilatı ilk dəfə olaraq kəhriz su sistemlərinin bərpasında yeni texnologiya tətbiq edir. Belə ki, kəhriz tunelləri və quyular avadanlıqlar vasitəsilə qazılır. Qazma işləri yekunlaşdıqdan sonra kəhriz quyularında bərkitmə işləri aparılır, dəmir-beton həlqələr quraşdırılır. Tunellərə isə polietilen borular qoyulur. Bununla da kəhrizlərin dayanıqlığı artırılır.

Bir kəhrizin bərpası yeni texnoloji metodologiya ilə 2 ay vaxt aparır. Halbuki ənənəvi üsulla kəhrizin ölçüsündən asılı olaraq xeyli vaxt lazım gəlirdi. Odur ki, yeni texnologiyanın tətbiqinin kəhriz su sisteminin iqtisadi səmərəliliyini artıracağı şübhəsizdir.

Hazırda rayonun Səfibəyli kəndi ərazisində 7 quyunu əhatə etməklə 171 metr məsafədə kəhrizin bərpası işləri aparılır. Səfibəylidən sonra Hacallı, Tatarlı və Səfikürd kəndlərində kəhrizlərin bərpası işlərinin aparılması nəzərdə tutulur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Ordubad gəncləri "Maliyyə məktəbi" layihəsinə qoşulublar

Ordubad rayonunun gənclərinin iştirakı ilə "Gələcək üçün maliyyə" mövzusunda təlim keçirilib. Məqsəd gənclərin asudə vaxtlarının səmərəli təşkili, onları maliyyə sahəsinə təşviq etməklə qazanc, qənaət, xərc, investisiya, büdcə haqqında məlumatlandırmaqdan ibarət olub.

AZƏRTAC xəbər verir ki, təlimdən əvvəl Ordubad Rayon İcra Hakimiyyətinin əməkdaşı Nurlan Səfərli layihənin ərsəyə gəlməsində əməyi keçənlərə minnətdarlığını ifadə edib. Muxtar respublikanın gənclər və idman nazirliyin əməkdaşı Valeh Mahmudov və Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin baş mütəxəssisi Zəhra İsmayılova təlimin məqsəd və əhəmiyyəti barədə danışıblar. Qeyd edilib ki, təlimlər sayəsində gənclər istehlak və qənaət vərdişləri qazanır, düzgün iqtisadi plan qurulması və maliyyə qərarlarının verilməsi haqqında məlumatlanır, ümumilikdə, maliyyə sahəsi ilə bağlı bilik, bacarıq, baxış və davranışlarını təkmilləşdirmək imkanı əldə edirlər.

Sonra Maliyyə Tədris Mərkəzinin təlimçisi İbrahim Şərifov tərəfindən "Pulun formalaşması və yeni nəsil valyuta", "Büdcə nədir", "Büdcənin düzgün şəkildə idarə edilməsi", "Şəxsi pul vəsaitlərinin planlı şəkildə istifadəsi", "Yığım və investisiyanın əhəmiyyəti" və digər mövzular haqqında ətraflı məlumat verilib, təlimlə bağlı hazırlanmış suallar əsasında intellektual yarış keçirilib. İlk üç yeri tutan komandalar və üzvləri təşkilatçılar tərəfindən sertifikat və hədiyyələrlə təltif olunublar.

Gənclər və İdman Nazirliyi və Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən təlimdə 30 gənc iştirak edib.

## İsmayıllıda ötən il 124 yeni iş yeri açılıb

İsmayıllı rayonunda 2021-ci ilin yanvar-dekabr aylarında 124 yeni iş yeri açılıb.

Rayon Statistika İdarəsindən AZƏRTACA verilən məlumatda bildirilir ki, açılan iş yerlərinin 29-u yeni yaradılmış müəssisə və təşkilatlarda, 84-ü mövcud müəssisə və təşkilatlarda, 11-i isə digər tədbirlər üzrə qeydə alınıb.

## Salyanda şum və səpin işləri yekunlaşıb

**Salyan rayonunda şum və səpin işləri başa çatıb.**

Rayon Statistika İdarəsindən AZƏRTACA verilən məlumata görə, 20577 hektar sahədə payızlıq əkin üçün şum qaldırılıb. Bu da keçən illə müqayisədə 901,5 hektar və ya 4,4 faiz çoxdur. Yanvarın 25-dək keçən illə müqayisədə 7 hektar çox olmaqla, 16867 hektar sahədə taxıl toxumu səpilib.

## Aqrar Sığorta Fondu nar bağlarının sığortasına başlayıb

**Azərbaycanda dövlət dəstəkli aqrar sığorta mexanizmi vasitəsilə nar bağlarının sığortası başlayıb.**



Aqrar Sığorta Fondundan AZƏRTAC-a bildiriblər ki, 2021-ci ilin dekabrında Nazirlər Kabinetinin müvafiq qərarı ilə aqrar sığota edilən bitkilərin sayı 14-dən 41-ə qaldırılıb. Digər meyvələrlə yanaşı, nar da aqrar sığorta edilən məhsulların siyahısına əlavə edilib.

Nar son illər ölkəmizdə ən çox sürətlə yayılan və fermerlərə böyük gəlir gətirən bitkilərdəndir.

Hazırda Azərbaycanda 22 min hektardan çox nar bağı var. Narın ən çox əkildiyi bölgələr Göyçay, Kürdəmir, Ağsu, Ucar, Hacıqabul, Saatlı, Sabirabad və digər bölgələrdir.

Nar ölkənin daxili tələbatını ödəməklə yanaşı, xaricə ən çox ixrac olunan məhsullardandır. 2021-ci ildə xaricə nar ixracı Azərbaycana 18 milyon dollardan artıq gəlir gətirib.

Nar bağlarının sığortalanması üzrə aqrar sığorta haqları bağın yerləşdiyi regiondan, məhsuldarlıq səviyyəsindən və məhsulun qiymətindən asılıdır. Ölkənin müxtəlif regionlarında narın baza zərfi üzrə sığorta tarifləri 1,62 faiz - 3,08 faiz arasında dəyişir.

Aqrar sığorta nar və digər meyvələri dolu, yanğın, zəlzələ, torpaq sürüşməsi, qasırğa, fırtına, sel və subasma, leysan, ildırım, şaxtavurma (donvurma), normadan artıq yağan qar yağıntıları, üçüncü şəxslərin hərəkətləri və sair risklərdən qoruyur.

**Misal. 1 hektar nar bağının sığortası:** 1 hektar sahədən gözlənilən məhsuldarlıq miqdarı 80 sentner, 1 sentner məhsulun bazar qiyməti 60 manat olarsa, sahədən gözlənilən məhsulun ümumi dəyəri - sığorta məbləği 4 800 manat təşkil edir. Bu sahənin baza zərfi üzrə sığortalanması ölkənin regionlarından asılı olaraq 78-148 manat arasında dəyişir. Fermer bu məbləğin yalnız yarısını - 39-74 manatını, qalan hissəni isə dövlət ödəyir.

Sığorta hadisəsi nəticəsində sahədəki məhsul tamamilə itirilərsə, sığorta ödənişi 4320 manat təşkil edir.

Əlavə sığorta haqqı ödəməklə meyvələri dolu riski nəticəsində yaranan keyfiyyət itkisi, şaxtavurma (donvurma), eləcə də bitki xəstəlikləri, zərərvericilər və xüsusi təhlükəli ziyanvericilərin vurduğu zərərdən də sığortalamaq olar.

Nar bağlarının aqrar sığortasına başlanması iş adamlarının və fermerlərin məhsullarını və gəlirlərini qorumaqla yanaşı, bu sahədə biznesin dayanıqlı olmasına töhfə verəcək.

Xatırladaq ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, nar ilə yanaşı, xurma, alma, armud, alça, albalı, gilas, ərik, şaftalı (nektarin), çiyələk, gavalı və heyva bağlarını da aqrar sığorta vasitəsilə sığortalamaq mümkündür.

Aqrar sığortanın əhatə etdiyi meyvə məhsullarının sığorta şərtləri və tarifləri ilə Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsində "Bitkiçilik məhsulları" bölməsində ətraflı tanış olmaq mümkündür.

Əlavə məlumatları Aqrar Sığorta Fondunun sosial şəbəkə hesablarını izləməklə və 1651 qısa nömrəsi ilə əlaqə saxlamaqla əldə etmək olar.

## Samuxda yeni məktəb binası istifadəyə verilmişdir

Samux rayonunda Həsən bəy Zərdabi adına Çobanabdallı kənd tam orta məktəbi üçün inşa edilmiş yeni binanın açılışı olmuşdur.

Təhsil nazirinin müavini Muxtar Məmmədov və Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayevin iştirak etdikləri açılışda qeyd olunmuşdur ki, yeni tikilən təhsil müəssisəsi 624 şagirdlikdir. Məktəbdə müasir təhsil standartlarına uyğun 24 sinif otağı, məktəbəhazırlıq və fənn kabinələri, həmçinin laboratoriyalar, informatika, akt və idman zalları, kitabxana və yeməkxana mövcuddur. Məktəb binasına videomüşahidə, yanğın əleyhinə siqnal sistemləri, internet və telefon xətləri də çəkilmişdir.

Açılışdan sonra qonaqlar məktəbdə yaradılmış şəraitlə tanış olmuşlar.

## Qobustanda kənd təsərrüfatı məhsulları istehsalı 14,5 faiz artıb

Qobustan rayonunda 2021-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalı inişilki illə müqayisədə 12,1 milyon manat və ya 14,5 faiz artıb.

Rayon Statistika İdarəsindən AZƏRTAC-a bildirilib ki, keçən il aqrar sektorda 95,2 milyon manatlıq ümumi məhsul buraxılışı olub. İstehsal edilən məhsulun 34,4 milyon manatı bitkiçilik, 60,8 milyon manatı isə heyvandarlıq sahəsinin payına düşür. Məhsul istehsalının artımı daha çox bitkiçilik sahəsindədir. Belə ki, bu sahədə 9,4 milyon manat, heyvandarlıqda isə 2,6 milyon manat artım olub.

Qeyd edək ki, aqrar sektorun inkişafı ilə əlaqədar sahibkarlara göstərilən dövlət dəstəyi məhsul istehsalının artımında mühüm rol oynayır.

# Salyanda "Pambıqçılıq-2022: qarşıda duran vəzifələr" mövzusunda Respublika Müşavirəsi keçirilib

**Salyanda "Pambıqçılıq-2022: qarşıda duran vəzifələr" mövzusunda Respublika Müşavirəsi keçirilib.**




Rayon icra hakimiyyətində keçirilən müşavirədə kənd təsərrüfatı naziri İnam Kərimov, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov, Azərbaycan Sənaye Korporasiyasının baş direktoru Kamran Nəbizadə, Kənd Təsərrüfatı Nazirliyi Aparatının və tabeli qurumlarının nümayəndələri, pambıq tədarükü və emalı şirkətlərinin rəhbərləri, Azərbaycan Dövlət Aqrar Universitetinin rəhbərliyi, rayon icra hakimiyyəti strukturunun məsul şəxsləri, pambıq əkini aparılan rayonların Dövlət Aqrar İnkişaf Mərkəzlərinin rəhbərləri, pambıqçılıqla məşğul olan fermerlər iştirak ediblər.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, müşavirəni açan Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov qeyd edib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, Azərbaycanda pambıqçılığın inkişafı istiqamətində kompleks tədbirlər həyata keçirilir. Salyan rayonunda kənd təsərrüfatı məhsullarının istehsalı, o cümlədən pambıqçılıq sahəsində böyük potensial və ənənələr mövcuddur, aqrar sahədə göstəricilər ildən-ilə artır.

Kənd təsərrüfatı naziri İnam Kərimov müşavirədəki çıxışında qeyd edib ki, pambıqçılıq ölkəmizdə güclü ənənələri olan kənd təsərrüfatı sahələrindən biridir. Bu sahənin inkişafı fermerlərimizin gəlirlərinin çoxalmasına, bölgədə məşğulluq səviyyəsinin artmasına müsbət təsir edir. Son illər ərzində dövlət tərəfindən pambıqçılığın inkişafına dəstək tədbirlərinin gücləndirilməsi bu sahəni fermerlərimiz üçün daha da cəlbedici edib. Bu sahəyə marağın artması nəticəsində pambıq istehsalının həcmi və orta məhsuldarlıq göstəriciləri ildən-ilə yüksəlir. Pambıqçılığın inkişafı daim Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Bu sahənin inkişafı ilə bağlı dövlət proqramının qəbulu və icrası, fermerlərə verilən subsidiyaların artırılması və digər dəstək tədbirləri pambıqçılarımızı daim yüksək nəticələr əldə etməyə ruhlandırır.

2021-ci ildə Ağcabədi, Neftçala, Tərtər, Salyan və Yevlax rayonlarında orta məhsuldarlıq 30 sentnerdən çox olub. Bu rayonlarda əldə olunan göstərici ümumrespublika göstəricisindən yüksəkdir. Eyni zamanda aqrotexniki qulluq işlərinin düzgün təşkili nəticəsində respublika üzrə 1202 fermer təsərrüfatında hər hektardan orta hesabla 59 sentner, 210 fermer təsərrüfatında isə hər hektardan 60 sentnerdən çox pambıq məhsulu əldə edilib.

Ötən ilin oktyabrında pambıq şirkətləri tərəfindən pambığın alış qiymətinin hər tona görə 50 manat artırıldığını xatırladan nazir bildirib ki, müşavirə ərəfəsində Kənd Təsərrüfatı Nazirliyi şirkətlərlə bu istiqamətdə müzakirələr aparıb. Müzakirələrə əsasən, şirkətlər fermerlərdən xam pambığın alış qiymətini 2022-ci il üçün daha 50 manat artırılması barədə razılığa gəliblər. Bununla da 2022-ci ildə şirkətlər fermerlərdən pambığın hər tonunu sortundan asılı olaraq 650-750 manata alacaqlar. Mövsümün gedişindən asılı olaraq pambıqçılıq şirkətləri tərəfindən məhsul yığımı ərəfəsində pambığın alış qiymətinin artırılması məsələsinə bir daha baxılacaq.

Qeyd olunub ki, Aqrar Subsidiya Şurası məhsul istehsalını stimullaşdırmaq məqsədilə pambıqçılığa subsidiyaların verilməsi qaydalarında dəyişiklik edib. Bu ildən fermerlər təhvil verdikləri pambığa görə yalnız məhsul subsidiyası alacaqlar. Fermerlərə təhvil verdikləri pambığın hər tonuna görə 170 manat subsidiya ödəniləcək. Məhsul subsidiyası almaq üçün fermerlərin torpaq mülkiyyətindən asılı olmayaraq EKTİS-də öz əkinlərini bəyan etməsi kifayətdir.

Müşavirədə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov mövcud su ehtiyatlarının daha səmərəli istifadə edilməsi, əkin sahələrinin təsərrüfat suyu ilə təmin olunması məqsədilə görülən işlər, su qrafiklərinin yaradılması və EKTİS-ə inteqrasiyası barədə çıxış edib. O bildirib ki, növbəti mövsümdə də aidiyyəti qurumların koordinasiyalı fəaliyyəti təmin olunacaq.

Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri İmran Cümşüdov, "MKT İstehsalat Kommersiya" MMC-nin baş direktoru Rövşən Həsənov, Pambıq İstehsalçıları Assosiasiyasının sədri İbrahim Məmmədov, fermerlər Balaş Əhmədov, Əlibala Səlimov və digər şəxslər ölkədə pambıqçılığın inkişafı istiqamətində görülmüş işlər, qarşıdan gələn yeni mövsümə hazırlıqla bağlı çıxış ediblər.

Müşavirədə pambıqçılığın inkişaf perspektivləri, fermerlərlə tədarükçü şirkətlər arasında əlaqələrin daha da gücləndirilməsi, toxum, gübrə, pestisid və texnika ilə təminat, iqlim dəyişikliyinin pambıqçılığa mənfi təsirlərinin aradan qaldırılması istiqamətində görülən işlər, aqrotexniki qulluq tədbirlərinin texnoloji xəritəyə uyğun aparılmasının zəruriliyi, suvarma məsələləri və digər aktual mövzular ətrafında müzakirələr aparılıb. Fermerlərlə aktiv dialoq formatında keçirilən müşavirə 3 saata yaxın davam edib. Fermerləri maraqlandıran suallar nazirliyin müvafiq struktur bölmələrinin rəhbərləri tərəfindən cavablandırılıb, səsləndirilən təkliflər qeydiyyata alınıb, qaldırılan məsələlərin həlli üçün müvafiq qurum və struktur bölmələrin rəhbərlərinə tapşırıqlar verilib.

Müzakirələrin sonunda bu formatda görüşlərin davam etdiriləcəyi, qaldırılan məsələlərin həlli istiqamətində görülən işlər barədə fermerlərin məlumatlandırılacağı bildirilib.

# Dövlət qurumları KİV-lə əlaqələri genişləndirir

## Bu işdə MEDİA onlara dəstək verir

*Əvvəli 1-ci səh.*

Tədbirin açılışında DGK-nın Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Natiq Axundov bildirdi ki, komitə kütləvi informasiya vasitələri ilə əlaqəni daha da sıxlaşdıraraq gördükləri işlər barədə ətraflı məlumat vermək niyyətindədir. O, həmçinin vurğuladı ki, Prezident İlham Əliyev tərəfindən idarəetmənin təkmilləşdirilməsi və şəffaflığın təmin edilməsi istiqamətində aparılan məqsədyönlü islahatlar öz müsbət nəticələrini verir. Bununla bağlı Gömrük Komitəsində də idarəetmədə bir sıra yeniliklər, layihələr reallaşdırılıb. Məqsəd ölkənin milli təhlükəsizliyini qorumaqla iqtisadi inkişafa töhfə vermək və sahibkarlıq fəaliyyətinə geniş imkanlar açmaqdır.

Medianın İnkişafı Agentliyinin nümayəndəsi Pərvanə İbrahimova dövlət tərəfindən medianın fəaliyyətinin təkmilləşdirilməsi sahəsində mühüm addımlar atıldığını bildirdi. Vurğuladı ki, belə tədbirləri keçirməkdə məqsədləri media nümayəndələri ilə dövlət qurumları arasında əlaqələri genişləndirməkdir. Bununla yanaşı, müxtəlif dövlət qurumlarının fəaliyyət sahələri ilə jurnalistləri tanış etməkdir.



Məlumdur ki, indi dünya mətbuatında ixtisaslaşmaya xüsusi diqqət yetirilir. Hər bir kütləvi informasiya vasitəsinin nümayəndəsi işıqlandıracağı sahə barədə doğru-düzgün bilgi sahibi olduqda oxucuya və ya dinləyiciyə səhih məlumat verə bilər. Müxtəlif dövlət orqanlarının fəaliyyəti ilə jurnalistlərin tanışlığı da bu nöqteyi-nəzərdən vacibdir. Medianın İnkişafı Agentliyinin son dövrlər bu istiqamətdə gördüyü işlər təqdirəlayiqdir.

Sözügedən tədbir çərçivəsində yanvarın 24-də Gömrük Komitəsinin məsul əməkdaşları çalışdıqları sahələr üzrə məlumat verdilər. Həmin gün KİV nümayəndələri Astara gömrük-keçid məntəqəsində görülən işlərlə yerində tanış oldular.

Komitənin Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsinin rəis müavini Azər Abasov bildirdi ki, 2019-cu il yanvarın 23-də 1 yük maşını, 150 dartıcı, 150 qoşqu, yəni ümumilikdə 301 nəqliyyat vasitəsi, bu il yanvarın 23-də isə 2 yük maşını, 143 dartıcı, 143 qoşqu, yəni ümumilikdə 288 nəqliyyat vasitəsi idxal əməliyyatlarını həyata keçirib.

Dövlət Gömrük Komitəsinin Əməliyyat-İstintaq Baş İdarəsi rəisinin birinci müavini Güloğlan Muradlı komitənin son dövrlər qaçaqmalçılıq və narkotiklərlə mübarizə sahəsində böyük uğurlar qazandığını bildirdi. Təkcə ötən il 3 tondan çox narkotik maddənin ölkəyə girişinin qarşısı alınıb.

Keçən il gömrük qaydaları əleyhinə 16 min 726 inzibati xəta faktları üzrə 1749 hüquqi şəxs (o cümlədən 481 xarici hüquqi şəxs) və 14 min 989 fiziki şəxs (o cümlədən 10 min 453 xarici vətəndaş) inzibati məsuliyyətə cəlb edilib, göstərilən şəxslərə qarşı 3 milyon 523 min 402 manat cərimə tətbiq olunmaqla, dəyəri 1 milyon 300 min 605 manat olan mallar məhkəmə orqanları tərəfindən müsadirə edilib.

Tədbirin ikinci günündə Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov jurnalistləri komitə rəhbərliyi adından salamlayaraq onlara bu tədbirdə iştirak etdiklərinə görə minnətdarlığını bildirdi.

İsmayıl Hüseynov son dövrlər Medianın İnkişafı Agentliyinin komitə ilə birgə təşkil etdiyi tədbirlərin hər iki tərəf üçün faydalı olduğu vurğuladı. Xüsusilə 44 günlük Vətən müharibəsində milli medianın fəaliyyətinin təqdirəlayiq olduğunu söylədi. Bu əməkdaşlığın davamlı olmasını təqdir etdi.

Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli belə əməkdaşlığın əhəmiyyətli olduğunu bildirdi. Qeyd etdi ki, Azərbaycan mətbuatı çətin və şərəfli bir yol keçib. Ölkədə gedən geniş islahatlar media sahəsində də aparılır. Medianın inkişafı ilə bağlı yeni qanun qəbul edilib və Medianın İnkişafı Agentliyi yaradılıb. Agentliyin yaradılmasında məqsəd ölkədə medianın inkişafına dəstək verməklə onun fəaliyyətini günün tələbləri səviyyəsinə qaldırmaqdır. Keçirilən bu tədbirin də əsas məqsədi dövlət orqanları ilə medianın əlaqələrini genişləndirmək, həmçinin jurnalistlərin peşəkarlığını artırmaqdır. Hesab edirəm ki, belə münasibətlərin qurulması medianın inkişafına, onun peşəkarlığının artmasına öz töhfəsini verəcəkdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Jurnalistlər üçün təşkil edilmiş üçgünlük təlimlər başa çatıb

Yanvarın 24-26-da Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM), Medianın İnkişafı Agentliyi, Xarici İşlər Nazirliyi və Müdafiə Nazirliyinin birgə təşkil etdiyi "Müharibədən sonrakı reallıqlar və media" başlıqlı üçgünlük təlimlər başa çatıb.



AZƏRTAC xəbər verir ki, təlimin ilk günü BMTM-də Mərkəzin İdarə Heyətinin sədri Fərid Şəfiyev və Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov çıxış ediblər. F.Şəfiyev bildirib ki, təlimlərin təşkilində əsas məqsəd beynəlxalq və xarici siyasət sahəsində çalışan jurnalistlərin peşəkarlığının artırılmasıdır. Media sahəsində müəyyən problemlərin olduğunu diqqətə çatdıran mərkəz sədri beynəlxalq, o cümlədən təşkilat və səfirliklərlə əlaqələrin daha da gücləndirilməsinin vacibliyini vurğulayıb.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, müharibədən sonrakı reallıqların beynəlxalq ictimaiyyətə çatdırılmasında medianın üzərinə böyük məsuliyyət düşür. O deyib ki, postmünaqişə dövründə bu mövzuda təlimlərin təşkili mühüm əhəmiyyət kəsb edir və sahə üzrə ixtisaslaşmış jurnalistlərə böyük ehtiyac duyulur. Çıxışlar zamanı belə təlimlərin mütəmadi xarakter daşıyacağı vurğulanıb.

Sonra Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva "Azərbaycanın müharibədən sonrakı dövrədə mövqeyinin beynəlxalq mediaya düzgün çatdırılması dili və terminologiyanın dəyişməsi", Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Anar Eyvazlının təlim mövzusu "Media nümayəndələrinin azad edilmiş ərazilərə səfərləri" və BMTM-in baş məsləhətçisi Vasif Hüseynov "Xarici mediada Azərbaycan həqiqətlərinin çatdırılmasına dair məqalələrin yazılması" mövzularında təlim keçiblər.

Təlimlərin ikinci günündə Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov tərəfindən "Postmünaqişə dövründə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması. Təhdidlər və perspektivlər", Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik İdarəsinin rəisi Yalçın Rəfiyev tərəfindən "44 günlük Vətən müharibəsi dövründə və ondan sonra beynəlxalq təşkilatlar çərçivəsində aparılan fəaliyyət", Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva tərəfindən "Postmünaqişə dövründə Azərbaycanın xarici siyasətinin prioritetləri" mövzularında təlimlər baş tutub.

Təlimlərin üçüncü günü, yəni, yanvarın 26-da Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzi, Hərbi Nəşriyyat və Hərb Tarixi Muzeyinə press-tur təşkil edilib.

Sonda jurnalistlərə sertifikatlar təqdim olunub.

# Gənclər və idman naziri Azərbaycan Yelkənli İdman Federasiyasının fəaliyyəti ilə tanış olub

Yanvarın 26-da gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Yelkənli İdman Federasiyasının fəaliyyəti ilə tanış olub.



Gənclər və İdman Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, gənc idmançılarla görüşən nazir onların dənizdə məşqlərini izləyib. Federasiya prezidenti Qüdrət Qurbanov görülən işlər barədə məlumat verib.

Görüş zamanı görülmüş işlər, idmançıların dünya və Avropa çempionatlarında, beynəlxalq yarışlarda iştirakı və nəticələri barədə təqdimat olub, bu idman növünün inkişafı istiqamətində müzakirələr aparılıb.

Görüşdə nazir müavini Mariana Vasilyeva və Azərbaycan Milli Avarçəkmə Federasiyasının prezidenti Vüqar Əhmədov da iştirak ediblər.

# Ölkəmiz işğaldan azad edilmiş ərazilərin reabilitasiyası və yenidən qurulması, məcburi köçkünlərin təhlükəsiz qaytarılması və münaqişədən sonrakı dövrdə dünya nizamı məsələlərinə birinci dərəcəli diqqət yetirir

Yanvarın 25-də Birləşmiş Millətlər Təşkilatının (BMT) mənzil-qərargahında BMT Təhlükəsizlik Şurasının "Şəhərlərdə hərbi əməliyyatlar: şəhər şəraitində mülki şəxslərin müdafiəsi" mövzusuna həsr edilmiş iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev açıq debatlarda məruzə ilə çıxış edib. Azərbaycanlı diplomat çıxışında qeyd edib ki, ötən illər ərzində hərbi əməliyyatların aparılmasını nizamlayan hüquqi baxımdan məcburi normaların möhkəm təməli işlənib hazırlanıb. İnkişaf etməkdə olan beynəlxalq məhkəmə praktikası beynəlxalq hüququ möhkəmlətməyə kömək edib, ən ciddi cinayətlərə görə təqsirkarların cəzalandırılmasına, belə cinayətlərin təkrarlanmasının qarşısının alınmasına, hüququn aliliyinin təmin edilməsinə, sülhün bərpasına və dünyanın inkişafına şərait yaradıb. Bununla belə, ciddi problemlər hələ də qalır. BMT-nin Baş katibi mülki şəxslərin müdafiəsi haqqında son məruzəsində qeyd edib ki, silahlı münaqişələr hələ də mülki şəxslər arasında böyük itkilərə, yaralanma və psixoloji travmalara, seksual zorakılığa, işgəncələrə, insanların yoxa çıxmasına, habelə evlərin, məktəblərin, bazarların, xəstəxanaların, əsas mülki infrastruktur obyektlərinin zədələnməsinə və dağıdılmasına gətirib çıxarır.

Y.Əliyev bildirib ki, Azərbaycan dinc sakinlərə hücumları və beynəlxalq humanitar hüququn pozulmalarını qətiyyətlə pisləyir. Şəhər rayonlarında baş verən silahlı münaqişələr mülki əhaliyə və baza strukturuna ciddi ziyan vurur. Bəzən hərbi hədəflər və ya mütənasib hərbi üstünlük olmayan rayonlarda hərbi qüvvə tətbiq edilir, silah tətbiq edilən mülki şəxslər və mülki obyektlər bilərəkdən hədəfə çevrilir. Belə hallarda mülki şəxslər kor-koranə hərəkətlərin yüksək riskinə məruz qalırlar.



Azərbaycanın BMT yanında nümayəndəliyinin rəhbəri qeyd edib ki, 1990-cı illərin əvvəlində Azərbaycan Ermənistan tərəfindən təcavüzün dağıdıcı nəticələrindən ciddi zərər çəkib. Beynəlxalq humanitar hüquqa uyğun olaraq bütün müharibə dövründə mülki şəxslərin qorunmasının pozulması yeganə və ya təsadüfi hallar olmayıb, çünki Azərbaycandakı mülki şəxslər və müxtəlif yaşayış məntəqələri dəfələrlə belə hücumlara məruz qalıb.

Y.Əliyev deyib ki, mülki əhaliyə, infrastruktur obyektlərinə, yaşayış evlərinə, məktəblərə və xəstəxanalara hücumların tezliyi və vaxtı, onların qəsdən hədəfə alınması, əhalisi sıx olan rayonlara qarşı ağır partladıcı silahların və beynəlxalq səviyyədə qadağan edilmiş bombaların tətbiq edilməsi və bunun doğurduğu dağıntıların miqyası onu göstərir ki, Ermənistan açıq-aşkar Azərbaycanın dinc sakinlərini qorxutmaq və öldürmək, onları öz evlərini və əmlakını qoyub getməyə məcbur etmək niyyətindədir.

Ən ciddi pozuntuların bir neçə saat ərzində yüzlərlə dinc sakinin həlak olması ilə nəticələnməsini vurğulayan azərbaycanlı diplomat qeyd edib ki, gələn ay Xocalı şəhərində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş münaqişə zamanı törədilmiş böyük soyqırımın otuz illiyi tamam olur. Ermənilər tərəfindən Xocalıya hücum və şəhərin tutulması nəticəsində yüzlərlə dinc sakin, o cümlədən qadınlar, uşaqlar və qocalar vəhşicəsinə qətlə yetirilib və ya ağır yaralanıb, girov götürülüb və işgəncələrə məruz qalıb, şəhər isə yerləyeksan edilib.

2020-ci ilin payızında 44 günlük müharibə nəticəsində bu münaqişə həll edilib. Azərbaycan işğaldan azad edilmiş ərazilərin reabilitasiyası və yenidən qurulması, məcburi köçkünlərin təhlükəsiz qaytarılması və münaqişədən sonrakı dövrdə dünya nizamı məsələlərinə birinci dərəcəli diqqət yetirir.

Buna baxmayaraq, döyüş əməliyyatları dayandırılandan, müharibə başa çatandan sonra Azərbaycanın yüzlərlə dinc sakini piyadalar əleyhinə minalara düşərək həlak olub və ya yaralanıb. Ermənistan Azərbaycan ərazisində yerləşdirdiyi yüz minlərlə mina barədə dəqiq məlumat verməyib, beləliklə, məcburi köçkünlərin geri qaytarılmasına mane olmağa çalışıb. Üstəlik, münaqişə dövründə Azərbaycanın şəhərlərinə, qəsəbə və kəndlərinə hərbi zərbələr endirmək və hücum etmək barədə əmr verənlər hələ də cəzasız qalırlar. Əksinə, onların çoxu Ermənistanda milli qəhrəmanlar kimi şöhrətlənir, ali siyasi və hərbi vəzifələrə irəli çəkilirlər.

Y.Əliyev daha sonra bildirib ki, S/2022/23 nömrəli konseptual məktubda bir sıra məsələlər qaldırılır. Təhlükəsizlik Şurasının bu iclasında, o cümlədən şəhər rayonlarında hərbi əməliyyatlar zamanı mülki şəxslərin üzləşdiyi problemlərin qarşısının alınması və onlara cavab verilməsi üçün Təhlükəsizlik Şurasının sərəncamında olan vasitələrdən daha səmərəli istifadə etməyin yolları və ölkələrin beynəlxalq humanitar hüquqa riayət olunmasını necə yaxşılaşdıra biləcəkləri barədə müzakirələr zamanı həmin konseptual məktubda qeyd olunan məsələlər rəhbər götürülməlidir. Diplomat deyib ki, beynəlxalq humanitar normalarına tam riayət edilməsinin təmin olunması bütün silahlı münaqişələrdə əsas vəzifədir. Cəzasız qalan hüquq pozuntuları çox vaxt münaqişələrin təkrarlanmasına və yeni cinayətlər törədilməsinə rəvac verən katalizator qismində çıxış edir. Azərbaycanlı diplomat vurğulayıb ki, BMT-nin Baş katibinin öz məruzəsində vurğuladığı kimi, qaydalara riayət olunması və qabaqcıl praktikanın tətbiq edilməsi, habelə təqsirkarların məhkəmə qaydasında təqibinin reallaşdırılması və qurbanlara dəymiş ziyanın ödənilməsinin təmin edilmişi üçün siyasi iradə tələb olunur.

Humanitar təşkilatların rolu əvəzedilməzdir. Bu təşkilatların münaqişəli və münaqişədən sonrakı hallarda iştirakı müstəsna olaraq humanitar xarakter daşımalı, bundan siyasi məqsədlər üçün istifadə edilməməli, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə müvafiq olaraq dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və milli birliyinə tam hörmət edilməklə zərər çəkmiş ölkənin razılığı, neytrallıq və qərəzsizlik prinsiplərinə uyğun şəkildə həyata keçirilməlidir.

Y.Əliyev çıxışının sonunda deyib ki, Təhlükəsizlik Şurası mülki şəxslərin müdafiəsinə xüsusi diqqət yetirməli, daim tələb etməlidir ki, silahlı münaqişədə bütün tərəflər beynəlxalq humanitar hüquq üzrə öz öhdəliklərinə tam riayət etsinlər.

# İkinci dozadan 6 aydan çox vaxt keçmiş şəxslərin peyvənd sertifikatı fevralın 15-dən etibarlı hesab edilməyəcək

**Məlum olduğu kimi, COVID-19 virusunun yeni və sürətlə yayılan təhlükəli variantlarının yarada biləcəyi ağırlaşma hallarından qorunmağın ən effektiv yolu vaksinasiyadır.**

Hazırda "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi davam edir. Əhalinin vaksinasiyada aktiv iştirakı nəticəsində Azərbaycanda epidemioloji vəziyyətin sabit qalmasına nail olunub. Yanvarin 25-nə olan məlumata əsasən, ölkə üzrə vurulan vaksinlərin ümumi sayı 11 845 510, onlardan 1 895 975-i "buster" doza vaksinlərinin sayıdır.

AZƏRTAC xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə məlumatında qeyd edilir.

Məlumatda bildirilir ki, "buster" doza (3-cü doza) qüvvətləndirici doza deməkdir. Belə ki, COVID-19 xəstəliyinə qarşı 2 doza vaksin vurdurduqdan 5 ay sonra orqanizmdən asılı olaraq, bu virusa qarşı müqavimət azala bilər. Orqanizmin koronavirus infeksiyasına qarşı immunitetini yenidən artırmaq üçün "buster" dozanın vurulması tövsiyə olunur.

Məlumat üçün bildirək ki, koronavirusa qarşı Azərbaycanda tətbiq olunan vaksinlərdən hər hansı birinin hər iki dozasını vurduran şəxslərə peyvənd sertifikatı verilir. Peyvənd sertifikatının etibarlılıq müddəti 6 aydır. Həmin müddət bitdikdən sonra peyvənd istehsalçısının istifadə təlimatında 2 doza vurulması nəzərdə tutulan peyvəndin 1 dozasını aldıqda Peyvənd sertifikatının qüvvədə olması müddətsiz olaraq uzadılır.

Səhiyyə qurumları vətəndaşlarımızı yayılan yeni ştamdan qorunmaq üçün ikinci dozadan və yaxud xəstəliyə yoluxub sağaldıqdan 5 ay sonra ("buster") doza ilə peyvəndlənməyə çağırır.

Qeyd edək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 30 dekabr tarixli 419 nömrəli Qərarına əsasən, peyvəndin 2-ci dozasının üzərindən 6 aydan çox keçmiş şəxslərin peyvənd sertifikatı fevralın 15-dən etibarlı hesab edilməyəcək. Belə ki, 2022-ci il fevralın 15-dən etibarən yaşı 18-dən aşağı olan şəxslərdən başqa, idman və sağlamlıq-bərpa obyektlərindən yalnız etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatı və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədi, yaxud COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatı olan şəxslər istifadə edə bilərlər.

Həmin tarixdən etibarən qərarın əlavəsində nəzərdə tutulan iş və xidmət sahələri işçilərindən etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatının və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədin, yaxud COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatının olması tələb edilir;

Həmin tarixdən etibarən dövlət orqanlarının (qurumlarının) əməkdaşlarının, habelə aşağıda qeyd olunan müəssisələrin işçilərindən (əmək və ya mülki müqavilələrlə işləməsindən asılı olmayaraq) etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatının və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədin, yaxud COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatının olması tələb edilir:

1. mülkiyyət formasından asılı olmayaraq bütün tibb və əczaçılıq müəssisələri;
2. mülkiyyət formasından asılı olmayaraq bütün elm və təhsil müəssisələri;
3. Bu Qərarın 2.4-cü bəndi nəzərə alınmaqla, bu Qərarın əlavəsində qeyd olunan iş və xidmət sahələrində fəaliyyət göstərən müəssisələr;

Həmin tarixdən etibarən 150 nəfərə qədər şəxsin iştirakı ilə təşkil olunan şənlik mərasimlərində iştirak edən yaşı 18-dən yuxarı bütün qonaqların etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatı və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədi, yaxud COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatı olmalıdır və şənlik mərasimlərində iştirak edən qonaqlar üçün tənəffüs yollarını qoruyan fərdi vasitələrdən məcburi istifadə tələb olunmur;

Həmin tarixdən etibarən ali və orta-ixtisas təhsili müəssisəsində təhsil alan yaşı 18-dən yuxarı olan bütün şəxslərin etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatı və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədi, yaxud COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatının olması tələb edilir (təhsil alanların sayı 200 nəfərdən az olan təhsil müəssisələri istisna olmaqla);

Həmin tarixdən etibarən yaşı 18-dən yuxarı olan şəxslər aşağıdakı yerlərdə qapalı məkanda göstərilən xidmətlərdən yalnız etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatı və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədi, yaxud COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatı olduğu halda istifadə edə bilərlər:

1. ictimai iaşə müəssisələrində;
2. mehmanxanalarda;
3. iri ticarət mərkəzlərində.

Həmin tarixdən etibarən hamam xidmətləri göstərən obyektlərdən yaşı 18-dən aşağı olan şəxslər istisna olmaqla, COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən yalnız etibarlı olan peyvənd sertifikatı və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədi olan, yaxud COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatı olan şəxslər istifadə edə bilərlər.

# Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə məlumatı

Son günlərdə qeydə alınan statistik göstəricilərə əsasən, yeni növ koronavirus (COVID-19) infeksiyasının yeni ştamına yoluxanların sayında artım müşahidə olunur. "Omikron" ştamının genetik xüsusiyyətlərini nəzərə alaraq vətəndaşlarımızdan səhiyyə qurumlarımız tərəfindən müəyyən olunmuş virusa yoluxma riskini azaldan göstərişlərə əməl etmələri xahiş olunur.

AZƏRTAC xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə məlumatında qeyd edilib.

Məlumatda bildirilir ki, özünüzdə koronavirusun əlamətlərini hiss edirsinizsə ilk növbədə ərazi üzrə poliklinikaya, ailə həkiminizə (sahə həkimi-pediatrı, sahə həkimi-terapevti) müraciət edin. Ailə həkiminiz sizin sağlamlıq vəziyyətinizi dəyərləndirdikdən sonra ehtiyac olarsa, COVID-19 (PZR) testinin götürülməsi üçün yaşadığınız ünvana tibb işçisini yönləndirir.

COVID-19-a yoluxduğunuz təsdiqləndiyi halda xəstəliyi simptomsuz və ya yüngül simptomlarla keçirirsinizsə, xəstəliyin ailənizə və ya ətrafdakılara yoluxmaması üçün evdə müalicə və təcridolunma qaydalarına riayət etməyiniz tövsiyə olunur:

- Özünüzü ailə üzvlərinizdən mümkün qədər təcrid edin;
- Maska taxın;
- Tez-tez əllərinizi yuyun və ya antiseptik vasitələrdən istifadə edin;
- Təcrid olduğunuz yeri tez-tez havalandırın;
- Ortaq istifadə olunan sahələri mütəmadi dezinfeksiya edin;
- Gün ərzində 2 dəfə bədən hərarətinizi ölçün;
- Bol maye qəbul edin;
- Yuxu rejiminə riayət edin (gün ərzində ən azı 7 saat dərin və rahat yuxu);
- Hərarət yüksəldiyi zaman (38°C və daha yuxarı) qızdırmasalıcı dərmanlardan istifadə edə bilərsiniz;
- 5 gündən çox müddətdə idarə olunmayan yüksək hərarət (>38.5°C, hərarətsalıcı dərmanlara tabe olmayan) sizi narahat edərsə, ailə həkiminə məlumat verin;
- Həkim təyinatı olmadan heç bir müalicəni qəbul etməyin;
- Tibb bacıları və kiçik tibb işçiləri tərəfindən tövsiyə olunan mayelərdən (sistem), dərmanlar və digər müalicə metodlarından çəkinin;
- Ehtiyac yarandığı təqdirdə vitaminlər (Vitamin C və D), ağrıkəsicilər, hərarətsalıcılar, öskürək əleyhinə və digər simptomatik müalicələr qəbul edə bilərsiniz.

Qeyd edək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, SARS-CoV-2 PZR test nəticəsi "müsbət" olan şəxslərin və onların müəyyən olunmuş "sıx təmaslı"larının təcrid (karantin) müddəti ölkəmizdə 14 gündən 7 günə azaldılıb.

COVID-19 xəstəliyini keçirmiş, bununla bağlı PZR testinin nəticəsi pozitiv çıxmış və rəsmi qeydiyyata düşmüş şəxslər 7 gündən sonra immunitet sertifikatını əldə edə bilərlər. Sertifikatın qüvvədəolma müddəti 6 aydır. Bu müddət bitəndən sonra peyvənd istehsalçısının istifadə təlimatında 2 doza vurulması nəzərdə tutulan peyvəndin 1 dozasını aldıqda sertifikatın qüvvədə olması müddətsiz olaraq uzadılır.

# "Gizli Omikron" peyda olub və sürətlə yayılmağa başlayıb

*Əvvəli 1-ci səh.*

## Koronavirusun yeni ştamının 3 yeni qolu yaranıb

Dünya "Omikron"la mübarizəsini bitirməmiş onun yeni əlavə şaxəsi də yayılmağa başlayıb. "Omikron"un yeni qolu sayılan BA.2 artıq dünyanın 40 ölkəsində qeydə alınıb. Klassik Cənubi Afrika "Omikron"undan fərqli olan BA.2 ilk dəfə dekabrda aşkarlanıb. "Gizli Omikron" adlanan bu növ daha çox mutasiyaya uğrayıb.

Mütəxəssislərin sözlərinə görə, "Omikron" sanki bölünüb, ikiləşib. Alimlər "Omikron"un ikiləşməsinin vəziyyəti çətinləşdirdiyini bildirirlər. "Gizli Omikron"u yalnız genom ardıcıllığına görə aşkar etmək mümkündür.

İsrailli alim Şay Fleyşon hesab edir ki, BA.2 daha sürətlə yayılır. Lakin immunitetin virusun bu növünə qarşı necə reaksiya göstərməsi hələ məlum deyil. "Omikron" şaxələndikcə onun yeni qolları fevral ayında daha pik yoluxmaya səbəb olacaq. Aprelə doğru isə yoluxma nisbətən səngiyəcək. Alim hər şeyin insanların kütləvi immunitetinin hansı səviyyədə formalaşmasından asılı olacağını söyləyib.




"Omikron"un BA.2 qolundan başqa, üçüncü qolunun da ortaya çıxdığı deyilir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) artıq "Omikron"un üç əsas altnövünün (BA.1, BA.2 və BA.3) olduğunu təsdiqləyib. İlkin təhlillərə əsasən, xəstəxanaya yerləşdirilmə baxımından BA.2 ilə BA.1 arasında heç bir fərq müşahidə olunmayıb.

Hindistanın Banaras Hindu Universitetinin Tibb Elmləri İnstitutunun professoru Sunit Sinqh açıqlayıb ki, "Omikron"da çoxlu mutasiyalar səbəbindən monoklonal anticisimlərin əksəriyyəti təsirli deyil: "Artıq göründüyü kimi, daha çox infeksiya ola bilər, amma virusun daha şiddətli olma ehtimalı yoxdur. Bundan sonrakı proseslərin mənzərəsi indiki kimi ola bilər. Lakin insanlar peyvənd olunmalı və ehtiyat tədbirləri görməlidirlər".

## Bəzi ölkələrdə BA.2 növü dominanta çevrilir

Bəzi mütəxəssislər belə fikir yürüdürlər ki, "Gizli Omikron" yeni kəşf edilməyib. O, ümumilikdə "Omikron" variantı qədər köhnədir. Altnöv ilk dəfə Cənubi Afrikada noyabrın sonunda aşkarlanıb. BA.2-nin indi gündəmə gəlməsinə səbəb Avropa ölkələrində onun törətdiyi fəsadların sayının artmasıdır.

Artıq "Omikron"un BA.2 altvariantı tədricən onun klassik variantını, yəni BA.1-i əvəz edir. "Omikron"un BA.1, BA.2 və BA.3 üç variantı olsada, BA.2, başqa sözlə "Gizli Omikron" son vaxtlar bir çox Avropa və Asiya ölkələrində dominant ştama çevrilir. Böyük Britaniya və Danimarkada aşkar edilmiş hallar göstərir ki, yoluxma sayına görə "Omikron"un BA.2 variantı BA.1-i keçə bilər.

Danimarkanın rəsmi qurumlarının ötən həftəki açıqlamalarına görə, BA.2 hazırda ölkədəki xəstəlik hallarının demək olar ki, yarısını təşkil edir və sürətlə dominant BA.1-i əvəz edir. Dekabrın sonunda ölkədəki yoluxmaların 20 faizini təşkil edən BA.2 yanvarın ortalarında yoluxmaların 45 faizini təşkil edib. Həmin dövrdə ölkədə yoluxmaların sayı da yüksək həddə çatıb. Danimarka səlahiyyətliləri həmçinin BA.2-nin İngiltərə, Norveç və İsveçdə sürətlə yayıldığını açıqlayıblar.

Böyük Britaniyanın Səhiyyə Təhlükəsizliyi Agentliyi ötən həftə verdiyi açıqlamasında bu günə qədər yalnız BA.2-dən 426 hadisənin qeydə alındığını bildirib. Bu, nisbətən kiçik rəqəm olsa da, səlahiyyətlilər altvariantı araşdırmaya cəlb etmək qərarına gəliblər. Artıq Fransa və Hindistan alimləri virusun yeni BA.2 variantının sürətlə yayıldığını və əvvəlki "Omikron"u geridə qoyduğunu söyləyirlər.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# Belarus və Rumıniya vətəndaşlarının hava nəqliyyatı vasitəsilə Azərbaycana giriş-çıxışına icazə verilib

Hava nəqliyyatı vasitəsilə daha 2 ölkənin - Rumıniya və Belarus Respublikasının vətəndaşlarının və həmin ölkələrdə daimi yaşayan digər ölkə vətəndaşlarının, habelə vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına giriş-çıxışına icazə verilib.

AZƏRTAC Nazirlər Kabinetinə istinadla xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov bununla bağlı "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" Qərarda müvafiq dəyişiklik edilməsi ilə bağlı qərarı imzalayıb.

# Fransa portalında bu ölkənin prezidentliyə namizədinin Qarabağa qeyri-qanuni səfəri tənqid olunub

Fransanın "Musulmansenfrance" portalında Jan-Mişel Brənin "Pekressdən Lö Drianadək: Hüquqi dövlət... işimizə yarayanda" sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Fransada prezident seçkilərinə namizəd Valeri Pekressin Azərbaycan torpaqlarına qeyri-qanuni səfərinə toxunulub.

Müəllif Fransa Milli Assambleyasında sağçıların bu səfərlərlə bağlı hay-küy salmalarından, sərsəmləmələrindən söz açaraq, Fransa Avropa və xarici işlər naziri Jan-İv Lö Drianın cavabının düzgün olmamasından yazıb. Bildirib ki, hüququn aliliyi yalnız Fransa rəsmilərinin işinə yarayanda yada düşür. Müəllif Qarabağ haqqında məlumat verərək, onun bütün beynəlxalq hüquq normalarına əsasən, Azərbaycanın ərazisi olduğunu qeyd edir. Pekressin Qarabağa gizli səfər etməklə bütün dünyada qəbul edilmiş qaydaları kobud şəkildə pozduğunu vurğulayıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Valeri Pekressin Qarabağa qanunsuz səfəri ilə bağlı fikirlərini olduğu kimi tərcümə edən müəllif burada heç bir hədədən söhbət getmədiyini diqqətə çatdırıb. Qeyd edib ki, Pekressin Fransa prezidentliyinə namizədliyi onun hər yerə getməsinə icazə vermir.

Müəllif Fransa Prezidenti Emmanuel Makronun Avropa İttifaqına sədrliyi zamanı inauqurasiya nitqində "Qanunun aliliyinin sonu özbaşınalığın hökmranlığıdır" söylədiyini xatırladan müəllif rəsmi Parisin Minsk qrupunun həmsədri kimi neytrallığa riayət etməli olduğunu bir daha vurğulayıb.

Jan-Mişel Brən bildirir ki, Fransanın Avropa və xarici işlər üzrə naziri Jan-İv Lö Drian Milli Assambleya üzvlərinə Qarabağın Azərbaycanın ərazisi olduğunu, onun suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət edilməsini təsdiqləyən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini xatırlatmalı idi.

Məqalədə Qarabağdakı xristian kilsələrinin erməni separatçıları tərəfindən dağıdılmasından da söz açılıb.

# Ermənistanda daxili qarşıdurma daha gərgin mərhələyə keçir

*Əvvəli 1-ci səh.*

Ermənistanda prezidentin istefasından sonra ictimai-siyasi müstəvidə son vəziyyətin təhlili "Sarkisyan-Koçaryan" koalisiyası ilə Nikol Paşinyan iqtidarı arasında daha böyük qarşıdurmanın olacağını göstərir. Artıq Armen Sarkisyanın yerinə yeni namizədlə bağlı müzakirələr başlayıb. Bu barədə hakim "Mülki müqavilə" partiyasının deputatı Gevork Papoyan deyib. O bildirib ki, mövcud qanunvericiliyə görə, prezidentliyə yeni namizədlə bağlı müzakirələrə başlamaq üçün hələ 5-6 gün vaxt var. Armen Sarkisyan hələ ki (o, istefasını geri götürə bilər) prezident olaraq qalır: "Bu vəziyyətdə biz yeni namizədlə bağlı məsələnin müzakirəsini tez hesab edirik, çünki ən azı nəzəri cəhətdən qanun Armen Sarkisyana istefa ərizəsini geri götürməyə imkan verir. Qanunvericilik imkan verən kimi məsələni müzakirə edəcəyik".

Deputat Vaaqn Hovakimyan isə xatırladıb ki, prezidentin yekun istefasından sonra namizədlərin irəli sürülməsinə 5 gün qalır. O zaman rəsmi müzakirələr başlayacaqdır.

Ermənistan prezidenti Armen Sarkisyanın xarici vətəndaşlığının olması ilə bağlı "Hetq" nəşrinin yaydığı məlumatdan danışan Vaaqn Hovakimyan bildirib ki, bu mesaj hüquq-mühafizə orqanları tərəfindən yoxlanılmalıdır.

Bəzi ekspertlər deyirlər ki, Armen Sarkisyanın istefası ölkədə yeni reallıqlar yaradıb. Belə ki, hökumət yaxın gələcəkdə tamamilə birqütblü ola bilər. İndi ölkə vətəndaşları Armen Sarkisyanın Ermənistan prezidenti kürsüsünə necə gəlib çıxdığını müzakirə edirlər. Onlar xatırlayırlar ki, həmin dövrdə - 2018-ci ilin aprelində prezident seçkiləri keçirilməzdən öncə - müxtəlif adlar, xüsusən də Vazgen Manukyanın ismi hallanırdı. Lakin o zaman dövlət başçısı postundan getməyə hazırlaşan Serj Sarkisyanın xarici dilləri bilən şəxsin prezident seçiləcəyini bəyan etməsindən sonra aydın oldu ki, söhbət Armen Sarkisyandan gedir.

Ermənistan KİV-ində yayılan məlumata görə, məhz həmin dövrdə sabiq dövlət başçısı Robert Koçaryan üçüncü prezident Serj Sarkisyanla görüşüb və öz fikrini əsaslandıraraq onu Armen Sarkisyanı gətirməməyə çağırıb. Həmin söhbətdən sonra Koçaryanla Serj Sarkisyan arasında onsuz da gərgin olan münasibətlərin ümumilikdə pozulduğu bildirilir.

"İravunk" qəzeti yazır ki, Armen Sarkisyan yenidən prezidentliyə namizədliyini irəli sürə bilər. Amma bir şərtlə ki, konstitusiyaya dəyişikliklər etməklə dövlət başçısının səlahiyyətləri genişləndirilsin. Qəzet yazır ki, Armen Sarkisyan hələ 2020-ci ildə verdiyi bir bəyanatda növbəti seçkilərə öz komandası ilə qatılmaqdan çəkinməyəcəyini gizlətməmişdi. O zaman A.Sarkisyan bildirmişdi ki, gələcəkdə konstitusiya dəyişiklikləri olarsa, komandasının formalaşacağını və siyasi proseslərdə fəal iştirak edəcəyini istisna etmir.

Görünən odur ki, Ermənistanda daxili siyasi vəziyyət daha da mürəkkəbləşməyə doğru gedir. Hələ ki bu ölkə sonu görünməyən növbəti siyasi böhrana qədəm qoyur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycanda COVID-19 infeksiyasına 3192 yoluxma faktı qeydə alınıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 3192 yoluxma faktı qeydə alınıb, 1259 nəfər müalicə olunaraq sağalıb.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 18 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 640 min 148 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 619 min 50 nəfər müalicə olunaraq sağalıb, 8 min 650 nəfər vəfat edib. Aktiv xəstə sayı 12 min 448 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 12 min 544, bu günə qədər isə ümumilikdə 6 milyon 94 min 493 test icra olunub.

# COVID-19 əleyhinə 30 mindən çox peyvənd vurulub




Yanvarın 26-da Azərbaycanda 30 min 563 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 2621, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 2549, "buster" doza ilə peyvənd olunanların sayı isə 25 min 393 nəfər təşkil edib.

Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 11 milyon 876 min 73, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 5 milyon 220 min 1, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 4 milyon 734 min 704 nəfər, "buster" doza ilə peyvənd olunanların sayı 1 milyon 921 min 368 nəfər təşkil edir.




BURULĞAN



**1930-cu illərdə böyük sovet imperiyasının həyata keçirdiyi repressiya siyasəti ozamankı Azərbaycan Sovet Sosialist Respublikasında (SSR) da çox ağır nəticələr verdi. Azərbaycan xalqının sinəsinə dağ çəkildi, çox dəyərli, istedadlı, vətənpərvər övladları həbs olundu, kimisi sürgünə göndərildi, kimisi də güllələndi…**

# Şuşadan başlayan repressiyalar

## 1937-ci ilin ilk repressiya qurbanları...

1937-ci ildə Azərbaycan Kommunist Partiyasının VI mart tarixli plenumunda Azərbaycanda repressiya siyasətinin əsası qoyuldu. Doğrudur, sovet hakimiyyəti o vaxta qədər də öz hakimiyyətini möhkəmlətmək üçün ən sərt tədbirlərə əl atmışdı. Amma 1937-ci ildən başlayaraq repressiyaların miqyası əhəmiyyətli dərəcədə genişləndi. 1937-1938-ci illərdə repressiya qurbanlarının ümumi sayı 80 min nəfəri ötdü.

İlk qurbanlar, əsasən, rəhbər kadrlardan seçildi. Belə ki, 1920-ci ilin fevralında Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin üzvləri olan, 28 Aprel işğalından sonra ilk hökumətin tərkibinə daxil edilən Ruhulla Axundov, Əliheydər Qarayev, Mirzə Davud Hüseynov, Sultan Məcid Əfəndiyev, Qəzənfər Musabəyov, Dadaş Bünyadzadə və digər partiya rəhbərləri xalqa xəyanətdə, əksinqilabi, casusluq fəaliyyətlərində təqsirləndirildilər. Onlar həbs olundular və ölümə məhkum edildilər.

Getdikcə represiya kütləviləşdirildi. Çox keçmədi ki, yoxsul təbəqələr, hətta baş verən hadisələri dərindən dərk etməyən fəhlə və kəndlilər də bu bəlanın girdabına düşdülər. Belə ki, xalqa xəyanətdə, xarici ölkələrin orqanları ilə əlaqədə, millətçilikdə günahlandırılan yüzlərlə fəhlə və kəndli həbs olunaraq işgəncələrə məruz qaldı.

## Bütün respublikanın kabusuna çevrilən siyasət...

Repressiya tufanı Azərbaycanın tanınmış qələm adamlarından da yan keçmədi. Qurbanlar arasında Hüseyn Cavid, Seyid Hüseyn, Əhməd Cavad, Mikayıl Müşfiq, Tağı Şahbazi Simurğ, Salman Mümtaz, Yusif Vəzir Çəmənzəmənli və başqaları vardı. Azərbaycan səhnəsinin məşhur aktyorları Abbas Mirzə Şərifzadənin, Ülvi Rəcəbin də həyatına son qoydular. Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Boris Nikolayeviç Tixomirov, Əziz Qubaydullin və başqa görkəmli alimlər də sovet hakimiyyətinin repressiya siyasətinin güdazına getdilər...

Məhkumlar xalqa, dövlətə xəyanətdə, müxtəlif ölkələrin xeyrinə casusluqda, pantürkizmdə, panislamizmdə təqsirləndirilirdilər. İttihamlar qədər verilən cəzalar da ağır olurdu. Repressiya qurbanlarının ailə üzvləri və digər yaxın qohumları da "unudulmurdu". Onlar da repressiyalara məruz qalaraq ya həbsxanada saxlanılır, ya güllələnir, ya da sürgünə göndərilirdilər.

Beləliklə, repressiya təhlükəsi sosial və milli mənsubiyyətindən asılı olmayaraq, hər kəsin başının üstünü aldı. Yalnız 1937-ci ildə Azərbaycanda 22 xalq komissarı, 49 rayon partiya komitəsinin katibi, 29 rayon icrayyə komitələrinin sədri, 57 zavod və mədən direktoru, 95 mühəndis, 110 hərbi qulluqçu, 207 sovet və həmkarlar ittifaqı işçisi, 8 professor həbs edildi. Və əksəriyyəti öldürüldü.

Beləcə, sovet hökumətinin repressiyası bütün Azərbaycanı bürüdü. 1937-ci ildə Şamaxıda Həmid Sultanov başda olmaqla, bir qrup kommunistin və bitərəfin açıq məhkəməsi baş tutdu. Gəncədə 1938-ci ildə əksinqilabçı, casus-terrorçu təşkilatın istintaq prosesinə başlanıldı. Müttəhimlər kürsüsünə çıxarılanlar keçmiş partiya işçiləri idilər. Onlar xalq düşmənləri kimi təqsirləndirilir, SSRİ-ni dağıtmağa, kapitalizm qurmağa cəhd göstəməkdə ittiham olunurdular.

## Qarabağın mərkəzi statusundan məhrum edilən Şuşada kütləvi həbslər

Tədqiqatlardan gəlinən nəticələrə görə, Azərbaycan SSR-in ərazilərində gündən-günə genişləndirilən, bütün respublikada kabusa çevrilən repressiyalara, əsasən, Şuşadan başlanıldı. Xalqın aparıcı qüvvəsi, düşünən beyni olan ziyalılardan qurtulmaq qarşıya qoyulmuş əsas məqsədlərdən biri idi. Sovet hakimiyyəti repressiya siyasəti ilə bu məkrli niyyətini həyata keçirmək üçün Şuşanın sayılıb-seçilən, nüfuzlu, istedadlı, tanınmış, söz sahibi olan insanlarını, məşhur sənətkarları, hətta adi peşə sahiblərini məhv etməyə başladı.

Hələ 1920-ci illərin kütləvi həbsləri zamanı Şuşa və onun ətraf kəndləri çox qurbanlar verməli olmuşdu. İlk qurbanlar Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəallıq göstərənlər idilər. Ümumilikdə min nəfərədək şuşalı repressiyanın güdazına getmişdi.

1920-ci ildə Azərbaycanda bolşeviklərin hakimiyyəti ələ keçirmələri Qarabağın, eləcə də Şuşanın ətraf ərazilərində yaşayan əhalinin etnik tərkibinə təsirsiz ötüşmədi. Sərt şəkildə, böyük qəddarlıqla həyata keçirilən repressiyalar Şuşa şəhərində azərbaycanlıların sayının azalması ilə nəticələndi.

Şəhərin inzibati statusu sovet hakimiyyəti dövründə bir neçə dəfə dəyişikliyə məruz qaldı. Şuşa PK(b)P MK Qafqaz bürosu plenumunun 5 iyul 1921-ci il tarixli qərarı ilə yeni yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi kimi müəyyənləşdirildi. Ancaq həmin qərar 1923-cü il iyulun 7-də həyata keçirilərkən Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Şuşa yox, Xankəndi seçildi. Sonrakı tarixi hadisələr belə düşünməyə və nəticələr çıxarmağa əsas verdi ki, bu qərar təcavüzkar ermənilərin Azərbaycana qarşı hazırladıqları planları Şuşadan reallaşdırmalarının çətinliyi nəzərə alınaraq verilib.

AK(b)P MK Rəyasət heyətinin 16 iyul 1923-cü il tarixli iclasının xüsusi qərarı ilə Şuşa şəhəri də Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil edildi. Şəhər eyni adlı rayonun və 12 kənddən ibarət Malıbəyli volostunun mərkəzinə çevrildi. Şuşanı 170 ildən artıq davam edən Qarabağın mərkəzi statusundan belə məhrum etdilər.

Sovet hakimiyyəti bu şəhərdə yaşayan əhalinin sayına və milli tərkibinə ciddi təsir göstərdi. Vaxtilə Azərbaycanın böyük və abad şəhərlərindən biri olmuş Şuşada, təxminən 50 il ərzində əhalinin sayı 3 dəfədən də çox azaldı. Belə ki, 1917-ci ildə burada 43.869 nəfər əhali yaşadığı halda, 1970-ci ildə onların sayı 13.664 nəfər oldu.

Əslində, sovet hakimiyyətinin Azərbaycanda bərqərar olması ilə başlayan və 1930-cu illərdə daha da genişlənən kütləvi həbslər respublikanın digər yerləri kimi Şuşada da böyük faciələrlə nəticələndi. Həmin illərdə həyata keçirilən repressiya siyasəti Teymur bəy Cavanşirov, Şamxal bəy Vəzirov, Əsgər Hacıyev, Məşədi Baba Quliyev, Cavanşir Rəşid Ağa, Əkbər Piriyev, Cəbiş Bəy Sədrəddinov, Cəfər Haciyev, İslam Hacıyev, Seyid Cəfər Ağamirov, Salman Ağayev və başqa şuşalıların ömrünü yarımçıq qoydu...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

QIRMIZI TERROR

# Sovet rejiminə qarşı üsyanlar

**1920-ci il mayın 29-da Şuşa qəzasında bolşeviklərlə əlbir olan ermənilər 30 Azərbaycan kəndini yandırdılar. Bu zaman çoxlu qadın və uşaq öldürüldü. Azərbaycanlı əhali içərisində sovet hakimiyyətinin nüfuzdan düşməsi haqqında N.Nərimanovun Moskvaya göndərdiyi həyəcan dolu məktublara məhəl belə qoyulmadı. Çünki mərkəz Azərbaycanda nələr törədildiyini yaxşı bilirdi. Bütün bunlar çox qısa müddətdə sovet rejiminə qarşı üsyanlara səbəb oldu.**



Sovet işğal rejiminə qarşı ilk və ən böyük üsyan Gəncədə baş verdi. Bolşeviklər Gəncədəki Milli Ordu hissələrini ləğv etmək istəyirdilər. Əsgərlərimizin tərk-silah edilməsi haqqında qərar şəhərdə böyük narazılıqla qarşılandı. 1920-ci il mayın 25-də üsyan başlandı. Üsyanda Milli Ordu hissələri ilə yanaşı, Gəncə şəhərinin on min nəfərdən çox sakini də iştirak edirdi. Üsyana rəhbərlik etmək üçün Hərbi Şura yaradıldı. Şuraya Milli Ordunun generalları Cavad bəy Şıxlinski, Məhəmməd Mirzə Qacar, polkovnik Cahangir bəy Kazımbəyov və başqaları daxil idilər. Üsyançılar ilk hücumla dəmir yolu stansiyasını ələ keçirdilər. Gəncə şəhərinin böyük bir hissəsi bir həftə üsyançıların nəzarəti altında qaldı. XI Ordunun rəhbərliyi üsyanı yatırmaq üçün digər bölgələrdən böyük qoşun birləşmələrini Gəncə ətrafına topladı. Ağır toplardan və zirehli qatarlardan da istifadə edib mayın 31-də düşmən Gəncə şəhəri üzərinə hücuma keçdi. Rus ordusuna çox güclü müqavimət göstərilsə də, qüvvələr nisbətinin qeyri-bərabərliyi üzündən üsyan yatırıldı. Xalq hərəkatı qan dəryasında boğuldu.

Üsyan yatırılandan sonra Milli Ordunun çoxlu sayda yüksəkrütbəli zabiti, o cümlədən 12 generalı həbs edildi. Onlar Bakıya gətirilərək Nargin adasında qətlə yetirildilər. Azərbaycan ziyalılarından görkəmli maarif xadimi Firudin bəy Köçərli və minlərlə ziyalı XI Ordunun xüsusi şöbəsi tərəfindən güllələndilər. Gəncə şəhəri rus əsgərləri və onlarla əlbir olan ermənilər tərəfindən üç gün qarət edildi. On üç min nəfərdən çox dinc sakin qətlə yetirildi. Gəncə üsyanı sovet Rusiyasını bərk qorxuya saldı. Həmin dövrdə Azərbaycana çoxlu əlavə hərbi qüvvələr göndərildi.

XI Ordunun xüsusi şöbəsinin Azərbaycanda fəaliyyəti ilə əlaqədar M.Ə.Rəsulzadə yazırdı: "Azərbaycanın həqiqi diktatoru, cəlladbaşı Pankratov idi. Pankratovun əmri fövqündə bir əmr yox idi". XI Ordunun siyasi şöbəsinin rəisi olmuş bu amansız insanın başçılığı altında olan xüsusi şöbədə çoxlu sayda erməni millətindən olan daşnaklar fəaliyyət göstərirdilər. O zaman A.Mikoyan Azərbaycan xalqının düşmənlərinin mənəvi dayağına çevrilmişdi.

Bolşeviklərin Azərbaycan Milli Ordusuna qarşı olan etimadsızlığı getdikcə onun tamamilə ləğv olunması haqqında qəti qərarın verilməsinə gətirib çıxartdı. Milli Ordumuzun əsas hissəsi - Cavanşir, Ağdam, Tatar, Şəki süvari alayları, Bakı piyada alayı və iki topçu divizionu Qarabağ bölgəsində yerləşirdi. Erməni qiyamlarına və təcavüzünə qarşı yerləşdirilmiş bu qüvvələr qəzalarda XI Ordunun və bolşeviklərin yeni hakimiyyətinin yerli türk-müsəlman əhalisinə qarşı etdikləri özbaşınalığa biganə qalmır və onların qarşısını almağa çalışırdı. Bu isə böyük münaqişələrə gətirib çıxarırdı. Hərbi bölmələrin tərkibində altı min nəfərə qədər əsgər var idi. Əslində, bu hərbi hissələr Qarabağa tam nəzarət etməklə bolşevik hakimiyyətinin nüfuzunu heçə endirmişdilər. Buna görə də sovet Rusiyasının hərbi komandanlığı XI Ordunun Qarabağda olan hərbi hissələri qarşısında Azərbaycanın ordu bölmələrini tərk-silah etmək vəzifəsini qoymuşdu.

Azərbaycan ərazisində XI Ordunun hərbi hissələrinə qarşı ilk üsyan Qarabağın Tərtər bölgəsində başladı. 1920-ci il may ayının 21-də Tərtərdə olan XI Ordunun 32-ci piyada diviziyasının 282-ci alayı yerini XI Ordunun digər hissələrinə verərkən Azərbaycan Milli Ordusunun III Şəki süvari alayına məxsus atları aparmaq istəmişlər. Azərbaycanın milli qüvvələri müqavimət göstərmişlər. XI Ordunun döyüşçüləri top atəşindən istifadə edərək atları aparmağa çalışmışlar. Şəki III süvari alayı məcbur olub 32-ci piyada diviziyasının 282-ci alayının əsgərlərini qırmışdılar.

Beləliklə, sovet rejiminə qarşı ikinci böyük üsyan 1920-ci il mayın 29-da Qarabağda başlanmışdı. XI Qızıl ordunun müdaxiləsi zamanı Milli Ordumuzun piyada və atlı alayları bu bölgəni öz nəzarətində saxlamaqda davam edirdi. Azərbaycan əsgərləri iyunun 5-də Tərtər, Ağdam və Şuşada savaşa girərək düşməni böyük təlefata uğratdılar. O zaman üsyana Nuru paşa başçılıq edirdi.

Yuxarı Qarabağda daşnaklar rus ordusu ilə əlbir hərəkət edirdilər. Onlar vəziyyətdən istifadə edib əzəli Azərbaycan torpağı olan Qarabağı ələ keçirmək istəyirdilər. Şuşa əhalisini üsyana qaldıran səbəblərdən biri də bu idi. XI Qızıl ordunun II süvari korpusu və 32-ci atıcı diviziyasının hissələri iyunun 10-da Qarabağ üsyançıları üzərinə hücuma keçdilər. XI Ordunun hərbi hissələri Qarabağ üsyançılarının və Azərbaycan Milli Ordu əsgərlərinin müqavimətini ağır səhra topları və zirehli avtomaşınların köməyi ilə dağıdaraq Bərdəni və Tərtəri ələ keçirdilər. Əsgərlər geri çəkilməyə məcbur olan yerli əhaliyə amansız divan tutur, yol kənarında yerləşən bəylik kəndlərini yandırırdılar.

Onlar Qarabağın Bərdə bölgəsində yerləşən Köçərli, Şahvəllər, İmirli, Tərtərin Sarıcalı, Qaraqoyunlu, Ağdamın Sarıcalı-Quzanlı kəndi ətrafında yerləşmiş Soflu, Aslanbəyli, Salahbəyli, Hüseynbəyli Sarıcalısı adlanan kəndlərini, Bərdə, Ağdam yoluna yaxın olan Qarvənd, Nəmirli kəndlərində olan abad bəy evlərini qarət edib yandırdılar. Azərbaycan Milli Ordusunun inadlı müqavimətinə baxmayaraq, XI Ordunun hərbi qüvvələri iyunun 11-də Ağdamı, iyunun 14-də Xankəndini və Şuşanı ələ keçirdilər. XI ordunun xüsusi şöbəsi və İnqilab Komitələri türk-müsəlman əhalisinə qarşı terrora keçərək Azərbaycan Milli Ordusunun 12 generalını, 27 polkovnik və podpolkovniki, 46 kapitan və ştabs-kapitanı, poruçik və podporuçik, 146 praporşik, 266 nəfər başqa hərbi işçiləri güllələmişlər. 1920-ci il aprel ayının 28-dən 1921-ci ilin avqustuna kimi Azərbaycanda 48 min adam qırmızı terrorun qurbanı olmuşdur.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

UNUDULMAZLAR

# General-mayor Feyzulla Mirzə Qacar

## O da bolşevik-daşnak qruplaşmasının qurbanı olmuşdur

**Şuşa, sən nə qədər əzəmətli və qüdrətlisən! İnsanların nə qədər mötəbər və vətənpərvərdilər. Bir anlığa dönüb tarixə nəzər salanda bu qəbildən bolşevik-erməni qurşunlarının qurbanı olmuş, arxivlərdə və cəmiyyətdə adının hallanmasına "məxfi"lik qoyulmuş neçə-neçə şəxsiyyət göz önündə canlanır. Xalqın və tarixin unuda bilmədiyi belə şəxsiyyətlərdən biri də uzun müddət çar ordusunun, daha sonra Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabiti olmuş general-mayor Feyzulla Mirzə Qovanlı-Qacardır.**

1920-ci ilin mayında Gəncə üsyanı zamanı bolşevik-erməni birləşmələri tərəfindən həyatına son qoyulan peşəkar hərbçi Feyzulla Mirzə Qovanlı-Qacarın haqqında sovet dönəmində heç bir məlumata rast gəlinmirdi, Azərbaycan Sovet Ensklopediyasına da (ASE) adı düşməyib.



Xatırladaq ki, general-mayor Feyzulla Mirzə-Qacar (Feyzulla Mirzə Çəfi oğlu) 150 il bundan öncə, 1872-ci il dekabrın 15-də, Şuşada anadan olub. Uşaqlıq illərini Şuşada keçirən Feyzulla təhsilini Tiflis müdavim korpusunda davam etdirib. 1891-ci ilin avqustundan 1893-cü ilin avqustuna kimi Nikolayevsk süvari peşə məktəbində hərbi xidmətdə olub. Məktəbi uğurla bitirdikdən sonra, 1893-cü il avqustun 7-də kornet (kiçik leytenanta bərabər rütbə) rütbəsində 43-cü Tver draqun alayına göndərilib. 1899-cu il martın 15-də leytenant rütbəsinə layiq görülən Feyzulla Mirzə - Qacar əsl hərbçi karyerasına 1901-ci il noyabrın 20-də alayın silahdar və sıraxarici komanda rəisi vəzifəsinə təyin olunmaqla başlayır. Bundan iki il sonra, 1903-cü il martın 15-də qərargah rotmistri rütbəsini alır. 1904-cü il noyabrın 3-də "İgidliyə görə" 4-cü dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif edilir.

1904-cü ildə başlayan rus-yapon müharibəsi zamanı 43-cü Tver draqun alayının qərargah rotmistri Feyzulla Mirzə-Qacar həmin il martın sonunda polkovnik Hüseyn Xan Naxçıvanski tərəfindən yeni formalaşdırılan 2-ci Dağıstan atlı alayına göndərilir. Alayın tərkibində döyüş əməliyyatlarında, həmçinin 1905-ci il yanvarın 14-də baş vermiş məşhur 2-ci Dağıstan atlı alayının süvari sırası ilə Landunqou kəndi yaxınlığında yapon batareyasına hücumda iştirak edir. Yüz əsgəri yapon batareyasının üstünə aparan Feyzulla Mirzə-Qacar döyüşlərin gərgin məqamında sağ ayağından ağır yaralanır.

Yaponiya ilə müharibə zamanı müxtəlif fərqlənmələrə görə 1905-ci il yanvarın 9-da 3-cü dərəcəli Müqəddəs Stanislav ordeninə layiq görülür. Həmin il iyulun 11-dən avqustun 10-dək Bensixu ərazisində döyüşlərdə göstərdiyi şücaətlərə görə 3-cü dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif edilir, 1905-ci il yanvarın 14-də isə Yaponlara qarşı əməliyyatlarda fədakarlığına və misilsiz xidmətlərinə görə yasavul rütbəsinə layiq görülür.

Müharibə bitdikdən sonra Feyzulla Mirzə-Qacar rotmistr rütbəsində 43-cü Tver alayında xidmətini davam etdirir. 1906-cı il noyabrın 16-da 4-cü eskadronun komandiri təyin edilir. 1907-ci il yanvarın 28-də İranın 3-cü dərəcəli "Aslan və Günəş" ordeninə layiq görülür. Yanvarın 29-dan alay məhkəməsinin üzvü olur. Verilən əmr və tapşırıqların vaxtında icrasına böyük məsuliyyətlə yanaşan Feyzulla Mirzə-Qacar 1912-ci il avqustun 26-da xidmətində fərqlənmələrə görə polkovnik-leytenant rütbəsi alır.

Çarın 1913-cü il 18 aprel tarixli əmri ilə polkovnik-leytenant Feyzulla Mirzə Qacar 10-cu Novqorod Virtemberq kralı alayına xidmətə göndərilir, orada kiçik qərargah zabiti vəzifəsində çalışır.

Birinci Dünya müharibəsi başlayandan təxminən üç ay sonra, 1914-cü il noyabrın 27-də Feyzulla Mirzə-Qacar Lvova general-leytenant Hüseyn Xan Naxçıvanskinin rəhbərlik etdiyi 2-ci kavaleriya korpusunda Qafqaz yerli süvari alayına xidmətə göndərilir. 1915-ci il yanvarın 5-də Mirzə Feyzulla Qacar Birinci Dünya müharibəsinin birinci ayının sonunda (1914-cü il avqustun 31-də) döyüşlərdə göstərdiyi şücaətlərə görə polkovnik rütbəsinə layiq görülür, yanvarın 31-də isə cənub-qərb cəbhəsinin baş komandanı, artilleriya generalı N.İ.İvanovun əmri ilə 2-ci dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə mükafatlandırılır. Bundan sonra Feyzulla Mirzə-Qacar ali əmr ilə Qafqaz yerli süvari alayı nəzdindəki Tatar alayının tərkibində şahzadə çeçen alayının komandiri təyin olunur.

Feyzulla Mirzə-Qacar "Vəhşi diviziya"nın zabitləri arasında martın 17-də Rostoki kəndinin yaxınlığında baş vermiş döyüşə görə 4-cü dərəcəli "Müqəddəs Vladimir" ordeni ilə təltif edilir. Sentyabrın 9-da isə Kuskovçı kəndinin yaxınlığında baş vermiş döyüşlərdə göstərdiyi igidliyə görə 2-cü dərəcəli "Müqəddəs Anna" ordeninə layiq görülür. Əsgər və zabitlər arasında peşəkar-hərbçi bacarığı ilə seçilən Mirzə Feyzulla-Qacar şahzadə 1915-ci il fevralın 15-də öz şəxsi təşəbbüsü ilə, yalnız bir zabitə malik 400 nəfərlik Uman kazak alayına rəhbərlik edərək, güclü tüfəng və pulemyot atəşi altında alayı rəşadətli hücuma sövq edir, iki dəfə döyüş meydanından qaçmaq istəyən kazakları geri qaytarır və qəti addımlar sayəsində Brin kəndini tutmağa müvəffəq olur. Buna görə 1915-ci il oktyabrın 17-də 4-cü dərəcəli "Müqəddəs Qalib Georgi" ordeni ilə təltif edilir.

Təəssüf ki, qəhrəman döyüşçü 1916-cı il dekabrın 9-da Rumıniya Vali-Salçi kəndi yaxınlığında gedən döyüşlər zamanı ağır yaralanır və Rusiyaya təxliyə edilir. 1917-ci il fevralın 17-də yenidən peşəkar ordu sıralarına qayıdaraq çeçen alayına rəhbərlik edir. Həmin il mayın 17-də general-mayor rütbəsi alır, mayın 30-da isə Qafqaz yerli süvari alayının 2-ci briqadasının komandiri təyin edilir.

Qafqazdakı rus ordusu buraxılarkən general-mayor Feyzulla-Qacar Zaqafqaziya Komissarlığının sərəncamı ilə Gəncəyə göndərilir. Milli hökumətin nəzdində ordu quruculuğu ilə məşğul olur, daha sonra "Şamxor davası"nda böyük şücaətlər göstərir. Qafqaz İslam Ordusu yaradılarkən böyük etimadla Qafqaz İslam Ordusunun tərkibində kavaleriya inspektoru vəzifəsi ona etibar edilir. 1918-ci ilin dekabrında Azərbaycan Xalq Cümhuriyyəti ordusunun süvari diviziyasının komandiri olur. 1919-cu il yanvarın 9-da AXC-nin hərbiyyə naziri, artilleriya generalı Səməd bəy Mehmandarovun əmri ilə Gəncə qarnizonunun komandiri təyin edilir. General-mayor Feyzulla Mirzə-Qacar Milli Ordu quruculuğunda, Qarabağda ermənilərin müsəlman kəndlərinə hücumlarının, habelə erməni silahlı birləşmələrinin Gəncəbasarda milli zəmində törətmək istədikləri neçə-neçə terror əməllərinin qarşısının alınmasında fəallıq göstərir.

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti imperiya qüvvələri tərəfindən süquta uğradıldıqdan, habelə baş verən "Gəncə üsyanı"ndan sonra xalqımızın qəhrəman oğlu, şuşalı hərbçi-xadim Feyzulla Mirzə-Qacar bolşevik-erməni birləşmələri tərəfindən güllələnmişdir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

GÜNAHSIZLAR

# Azərbaycanda siyasi repressiyalar vətənpərvər ziyalılarımızın həyatına son qoydu

**1936-cı ilin noyabr ayında trotskiçilikdə, müsavatçılıqda və casusluqda ittiham olunan onlarca görkəmli kommunist XDİK tərəfindən həbs olundu.**



Hətta Bağırovun şəxsi katibi Nikişov da "Müsavat agenti", "terrorist" kimi tutuldu. Azərbaycan Dövlət Universitetinin rektoru Balabəy Həsənbəyov, Azərnəşrin direktoru İbrahim Eminbəyli, tanınmış etnoloq, professorlar A.S.Bukşpan və Nikolayev, Mübariz Allahsızlar İttifaqının sədri ədib Vəli Xuluflu partiyadan qovularaq həbs olundular.

Bu dövrdə kəndlilər arasında "üsyançı" qruplar aşkara çıxdı.

Dekabrda repressiyalara artıq rayon rəhbərləri də məruz qaldılar. XDİK Naxçıvanda bütün partiya rəhbərliyini həbs etdi, Naxçıvanın partiya bölgə komitəsinin birinci katibi M.Mehdiyev isə məhkəmə qarşısına çıxarıldı və "düşmən və cinayətkar elementlərlə əlaqələr" ittihamı ilə edam edildi. Əli Bayramlı, Göyçay, Qazax, Qasım İsmayılov, Qonaqkənd, Lənkəran, Noraşen, Samux, Suraxanı və Şamxor rayonlarının katibləri də onun ardınca repressiyaya məruz qaldılar.

1937-ci ilin əvvəlində bir qrup partiya rəhbərləri və sovet işçiləri siyasi xarakterli cinayət məsuliyyətinə cəlb olundular. Həbs olunanlar arasında Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin və Sovet İttifaqı Kommunist Partiyası Zaqafqaziya Diyar Komitəsinin keçmiş katibi Ruhulla Axundov da var idi.

*"Azərbaycan"*

# "Azərbaycan Uşaq Qaynar xətti" 2021-ci ilə olan hesabatı təqdim edib

## "Azercell"in dəstəyilə fəaliyyət göstərən xidmətə ötən il 5300-ə yaxın müraciət daxil olub



On bir ildən artıqdır ki, "Azercell Telekom" MMC-nin, UNICEF Azərbaycanın və "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin birgə əməkdaşlığı ilə fəaliyyət göstərən "Azərbaycan Uşaq Qaynar xətti" (AUQX) xidməti yarandığı gündən müxtəlif problemlərlə üzləşmiş uşaqlara kömək edir. Qeyd edək ki, bu illər ərzində xidmətə 53000-dən çox müraciət daxil olub.

Bu müddət ərzində qurulan uğurlu əməkdaşlığın indiki səviyyəsini müzakirə etmək və gələcək konturlarını müəyyənləşdirmək məqsədilə "Azercell Telekom" MMC-nin Korporativ Ünsiyyət Departamentinin direktoru Sona Abbasova, şirkətin Media ilə əlaqələr üzrə direktoru Nigar Şıxlinskaya və digər nümayəndələri ilə "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin icraçı direktoru Kəmalə Aşumova və sədri Nabil Seyidov arasında görüş keçirilib. Görüşdə gələcək planlar müzakirə olunub, daha fərqli istiqamətlərdə əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılıb. Sonda "Azercell Telekom" MMC "Azərbaycan Uşaq Qaynar xətti" xidmətini dəstəkləməklə uşaqların hüquqlarının qorunmasında uzunmüddətli töhfəyə və əməkdaşlığa görə "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyi tərəfindən Fəxri fərmanla təltif olunub.

"Azərbaycan Uşaq Qaynar xətti" xidmətinin təqdim etdiyi hesabata əsasən, mərkəzə 2021-ci il ərzində müxtəlif sahələri əhatə edən problemlərin həlli ilə bağlı 5300-ə yaxın zəng edilib. Bunlardan 1471-i təhsil, 1036-sı hüquqi, 822-si psixoloji, 606-sı səhiyyə, 501-i sosial və digər məsələlərlə bağlı olub. Müraciət edənlərə, əsasən, telefon vasitəsilə psixoloji yardım göstərilib, ehtiyac olduqda isə fərdi və qrup terapiyaları həyata keçirilib. Həmçinin ailələrdə psixoloji və fiziki zorakılıq halları ilə bağlı 414 müraciət daxil olub. Bu müraciətlərin hər biri ilə əlaqədar ailələrlə iş aparılıb, hüquqi məsləhətlər verilib.

İl ərzində "Qaynar xəttə" daxil olmuş müraciətlərin araşdırılması və müvafiq yardımların göstərilməsi məqsədilə mərkəz tərəfindən müxtəlif təşkilatlara 364 məktub ünvanlanıb. Bəzi müraciətlərin ətraflı araşdırılması məqsədilə 81 ailə mərkəzə dəvət olunub, onların uşaqları ilə 263 sosial-psixoloji reabilitasiya işi həyata keçirilib. Daxil olan müraciətlərə, əsasən, bir sıra ailə və məktəblərə təcili və təxirəsalınmaz səfərlər təşkil edilib.

Qeyd edək ki, "Azərbaycan Uşaq Qaynar xətti" xidmətinin fəaliyyəti yalnız zənglərin cavablandırılması ilə bitmir. Eyni zamanda hər il əhalinin məlumatlılığının artırılması, uşaq və yeniyetmələr üçün əlçatanlığın təmin edilməsi məqsədilə "Qaynar xətt" xidmətinin əməkdaşları tərəfindən müxtəlif maarifləndirmə tədbirləri həyata keçirilir. Ümumilikdə 2021-ci il ərzində maarifləndirmə tədbirlərinə 1500-dən çox uşaq cəlb olunub.

"Uşaq Qaynar xətti"nə 24 saat xidmət göstərən 116111 qısa nömrəsi, +994 50 680 22 80, +994 51 580 22 80, +994 51 880 11 80, +994 51 880 22 80 mobil nömrələri, ushaqqaynarxetti@gmail.com elektron poçtu, "Feysbuk" və "İnstaqram" sosial şəbəkələri, mərkəzin saytındakı canlı çat və "uşaqqaynarxetti" mobil əlavəsi vasitəsilə müraciət etmək olar.

# Böyük maraqla izlənilən "Azercell Hackathon-2022" yarışması başa çatdı!

"Azercell Telekom" MMC-nin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən "Azercell Hackathon-2022" yarışması yanvarın 25-də başa çatıb.



"Hackathon"da müxtəlif bacarıqlara malik, innovativ düşüncəli və potensiallı gənclər təqdim edilən texnoloji tapşırıqların ən uğurlu həllinin tapılması istiqamətində yarışıblar. "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" strateji məqsədini əsas tutan "Azercell Telekom" müsabiqə vasitəsilə proqramçı gənclərin rəqabət şəraitində biliklərini yoxlamasına, özünü tanıtmasına, müxtəlif proqram, innovativ məhsul və xidmətlərin meydana gəlməsinə şərait yaradır.

Yanvarın 22-23-də keçirilən "Azercell Hackathon-2022" müsabiqəsində 36 nəfərdən ibarət 12 komanda iştirak edib. Tədbirin açılışından sonra komandalar onlara verilən tapşırıqlar üzərində işləməyə başlayıblar. "Hackathon" boyunca iştirakçılara "Azercell"in peşəkar İnformasiya Texnologiyaları və İnsan Kapitalı komandaları dəstək olublar.

Qeyd edək ki, bu yarışmada iştirak üçün 30-dan çox komanda müraciət edib, ilkin mərhələdə onlardan 12-si seçimdən uğurla keçərək müsabiqəyə vəsiqə qazanıb. Yanvar 23-də müsabiqəyə ayrılan vaxtın sonunda iştirakçılar tapşırıqlara uyğun hazırladıqları texnoloji həlli təqdim ediblər. Yarışmanın yekun mərhələsi yanvarın 25-də ADA Universitetində baş tutub. Final zamanı iştirakçı komandalar yekun təqdimatları ilə münsiflər qarşısında çıxış ediblər. Tapşırıqları tələb olunan meyarlara uyğun şəkildə və ən yüksək nəticə ilə yerinə yetirən komandalar qalib elan olunublar.

Nəticələrə əsasən, "Azercell Hackathon-2022" yarışmasında 1-ci yerə "Enigma", 2-ci yerə "Fayda", 3-cü yerə isə "Code Geass" komandası layiq görülüb. Qaliblərə tutduqları yerlərə müvafiq olaraq 3000 AZN, 1500 AZN dəyərində pul mükafatı və qiymətli hədiyyələr təqdim olunub.

Mükafatlandırma tədbirində təşkilati dəstəyi ADA Universiteti göstərib.

"Azercell Telekom" MMC qalibləri təbrik edir, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayır. Şirkət gənclərin elmə, təhsilə, innovativ yanaşmaya, texnologiyalara və rəqabətədavamlı biliklərə yiyələnməsinə hər zaman xüsusi önəm verir və bu istiqamətdə təşəbbüs və layihələri davam etdirəcək.

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 27.01.2022-ci il saat 23:00-dan etibarən 28.01.2022-ci il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

◆ Dünya gündəmi

# Adolf Hitlerin təsvirləri kilsələrdən tapılır

## Mübahisəli əsərlərdə nasizm lideri müxtəlif obrazlarda görüntülənir

**Adolf Hitlerin təsvirləri kilsələrdə aşkarlanıb. Əslində, bu o qədər də nadir hal deyil. Hitlerin təsvirini kilsə pəncərələrinin vitrajlarında və ya mehrabların qanadlarında tapmaq olar. Bəs bu necə oldu ki, ortaya çıxdı?**







Vayl-der-Ştadt şəhəri Almaniyanın cənub-qərbində yerləşir. Burada Müqəddəs Pyotr və Pavel katolik kilsəsi yerləşir. Pastor Anton Qruberin dediyinə görə, ziyarətə gələn çoxdur, əksəriyyəti üçün Hitlerə baxmaq maraqlıdır.

### Hitler şərin təcəssümü kimi təsvir edilib

Pəncərə məbədin sağ tərəfində yerləşir. Bu, İsanın həyatından səhnələri əks etdirən doqquz paneldən ibarət olan böyük vitrajın bir hissəsidir. Sağ üst küncdə nəfs səhnəsi: şeytan İsa peyğəmbərin imanını sınağa çəkir. Bu səhnədə rəssam JoKarl Huber açıq-aydın şəkildə Adolf Hitlerin xüsusiyyətlərini sarı paltar geyinmiş şeytanda təsvir edib. Bu kontekstdə sarı rəng - həsəd və mübtəlalıqdır.

Bununla yanaşı, rəssamın konkret olaraq bu əsərə heç bir şərhi yoxdur - yalnız onun Hitleri öz dövrünün iblisi kimi təsvir etmək istədiyini təxmin etmək olar. Əsər 1939-cu ildə yaradılıb. Onu yalnız rəsmin yaranma tarixçəsi, rəssamın tərcümeyi-halı və o dövrün təfərrüatları məlum olduğu halda şərh etmək olar. Pastorun sözlərinə görə, nasistlər JoKarl Huberin işləməsinə qadağa qoyub, 1936-cı ildə isə onlar onu "degenerativ incəsənət"ın yaradıcısı kimi ifşa ediblər.

### Mübahisəli əsərlər və onların yaranma tarixi

Tarixçi və publisist Mixael Kuderna əmindir ki, bu kilsə pəncərəsi millətçi sosializmə və onun rəhbərliyinə qarşı aydın və cəsarətli bəyanat nümayiş etdirir. Özünün "Sərhədləriaşma: alman-fransız memarı, onun şah əsərləri və kilsələrdə Hitlerin təsvirləri" adlı yeni kitabında Kuderna bir neçə kilsədə Hitlerin təsvirlərini nəzərdən keçirib: "Tədqiqat zamanı Hitlerin 1945-ci ilədək yaradılmış beş və 1945-ci ildən sonra çəkilmiş doqquz şəklini tapdım. Erkən görünüşlərə gəldikdə, söhbətin məhz Hitler haqqında olduğunu sübut etmək çətindir, buna 100 faizlik əminlik yoxdur. Müharibədən sonra kilsələrdə Hitlerin təsvirinin yerləşdirilməsi repressiya riski olduğu əvvəlki illərlə müqayisədə şərin nümayəndəsi kimi - məsələn, cəhənnəmdə yanan cəllad və ya cani kimi təsvir edilir. Zaman keçdikcə obrazlar dəyişirdi: rəssamlar tez-tez Hitleri başqa kontekstlərə yerləşdirirdilər, ona daha sakit, sərbəst, bəzən hətta yumorla yanaşmağa başladılar".

Kuderna öz tədqiqatlarına 20 il əvvəl Fransada kilsəni ziyarət edərkən başlayıb. Vayl-der-Ştadt şəhərinin kilsəsindəki pəncərədən fərqli olaraq, fransız vitrajı 1945-ci ildən sonra yaradılıb. "Qarşımızda Əhdi-Ətiqdən olan səhnədir: Rahil-Lavanın qızı atasının bütlərini oğurlayır. Onlardan birini rəssam Qabriele Kütemeyer Hitlerə bənzədib. Rəssamın atası nasizmin qəti əleyhdarı olub, bir müddət Berlində gestapo həbsxanasında saxlanılıb. Qabriele tez-tez atasından eşidirdi ki, almanlar lazımi bütləri təqib etmirlər. Bu, rəssamda, şəkildəki həmin əlaqəni axtarmaq fikri oyadıb", - deyə Mixael Kuderna düşüncələrə dalır.

Tədqiqatçı ümumilikdə müxtəlif məbədlərdə Hitlerin təsvir olunduğu 14 əsər tapıb.

### Mürəkkəb keçmişin işlənməsi

Kitabda tarixçi Münhendə Hitlerin cəllad şəklində təsvir edildiyi bir hadisəni xatırladır: "Şəkildə mürəkkəb izləri var idi və onu əlçatmaz yerə qoymuşdular. Başqa bir hadisə də olub. Bavariyanın Landshut şəhərində Hitler, Gebbels və Gerinqin müqəddəs şəhid Kastula işgəncə verdiklərini təsvir edən kilsə pannosu ətrafında müzakirələr uzun illər davam edib. Müharibədən sonra amerikalılar əvvəlcə şəkli çıxarmağı tələb ediblər. Ancaq rəssamın müqavimət döyüşçüsü olduğunu bildikdən sonra fikirlərindən daşınıblar".

Kudera əmindir ki, bu obrazların yox olmasına imkan vermək olmaz, onlardan keçmişlə işləmək üçün istifadə etmək lazımdır.

Pastor Anton Qruber də belə polemik əsərlərin açıq müzakirəsini istəyir: "Nasizm dövründə çəkilmiş fotoşəkillər tarixin sübutudur. Belə olan halda niyə mən kilsədə Adolf Hitleri görməli deyiləm?"

Yeri gəlmişkən, Anton Qruberin xidmət etdiyi Vayl-der-Ştadt kilsəsində Hitlerin tamamilə təzə bir görüntüsü var - bu, 2018-ci ilə aiddir. Şəkildə təsvir olunmuş təlxəklər dəstəsində Hitler və bir çox digər tanınmış şəxslər göstərilir. Rəssam Diter Qross öz fikrini bu cür ifadə edib: "Hitleri bir çoxları arasında sadə bir axmaq kimi təsvir edə bilərəmmi?"

Mixael Kuderna üçün bu Hitler indiyədək gördükləri arasında ən qəribəsidir. Tədqiqatçının dediyinə görə, onun fikrincə, Hitlerin təlxək kimi təsviri onun tarixdə oynadığı rola uyğun gəlmir. Öz növbəsində, pastor Qruber gördüklərinə şərh vermək və mübahisə etmək hüququnu ziyarətçilərin öhdəsinə buraxır.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*

# Gürcüstanlı gənclər Bakı Ali Neft Məktəbində təhsil almağa maraq göstərirlər

**Gürcüstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze Bakı Ali Neft Məktəbində (BANM) olub.**



Ali Məktəbin rektoru Elmar Qasımov öncə Bakı Ali Neft Məktəbinin kampusunu gəzən səfirə burada yaradılan modern tədris şəraiti və tədqiqat mühiti ilə bağlı ətraflı məlumat verib. Sonra keçirilən görüşdə Elmar Qasımov iki ölkə arasında mövcud olan münasibətlərdən bəhs edərək Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin zəngin tarixə malik olduğunu vurğulayıb. Təhsil sahəsində əməkdaşlığın vacibliyinə toxunan rektor qeyd edib ki, Bakı Ali Neft Məktəbinin məzunları SOCAR-ın və ölkənin müxtəlif sənaye müəssisələrində, eyni zamanda transmilli şirkətlərdə çalışırlar. Bakı Ali Neft Məktəbi ən müasir texnologiyalar və peşəkar pedaqoji heyətlə təmin olunmuş innovativ təhsil müəssisəsi kimi inkişaf edib.

Azərbaycanın Gürcüstan üçün mühüm strateji tərəfdaş olduğunu vurğulayan Zurab Pataradze gürcüstanlı gənclərin Bakı Ali Neft Məktəbində təhsil almalarında maraqlı olduqlarını ifadə edib və bu istiqamətdə hər cür dəstək verəcəklərini bildirib. Səfir SOCAR-ın Gürcüstanda neft sektorunun ən böyük investoru və ölkənin ən böyük vergi ödəyicilərindən biri olduğunu, yüksək sosial məsuliyyət daşıdığını vurğulayıb. Bildirib ki, şirkətin həyata keçirdiyi layihələr Azərbaycan və Gürcüstan arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə töhfələr verir.

Sonda Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov Zurab Pataradzeyə Ali Məktəbin "Fəxri qonaq" plaketini təqdim edib.

# "Azərişıq" ASC bu il regionlarda yeni layihəyə start verib

**"Azərişıq" ASC-nin Mətbuat xidmətinin məlumatına görə, cari il ərzində ümumilikdə müxtəlif regionları əhatə edən 100-dən çox kənd və yaşayış məntəqəsinin elektrik enerji şəbəkəsi tamamilə yenidən qurulacaq.**

Layihə çərçivəsində Şəkinin Baş Zəyzid, Şirinbulaq, Aşağı Göynük, Aşağı Daşağıl kəndlərinin elektrik şəbəkəsində yenidənqurma işlərinə başlanılıb.

Görüləcək işlər çərçivəsində ümumilikdə 1826 abonentin yaşadığı bu 4 kənd ərazisində 41ədəd Komplekt Transformator Məntəqəsi quraşdırılacaq, 95 km-ə yaxın 10 kV-luq, 103 km-ə yaxın 0,4 kV-luq elektrik xətləri və abonentlərin sayğacları yenilənəcək.

Neftçala rayonunun 4 kəndinin də elektrik şəbəkəsi yenidən qurulur. Şorkənd, Bala Surra, Qədimkənd və Yeniqışlaq kəndlərində işlərə başlanılıb. Ümumilikdə 714 abonentin yaşadığı 4 kənd ərazisində 15 ədəd Komplekt Transformator Məntəqəsi quraşdırılacaq, 28 km-dən çox 10 kV-luq xətt, 46 km-dən çox 0,4 kV-luq xətləri və abonentlərin sayğacları yenilənəcək.

Xatırladaq ki, yeni layihə çərçivəsində digər regionlarda da işlər davam edir. Elektrik şəbəkəsi yenidən qurulan növbəti kəndlər haqqında da qarşıdakı günlərdə əlavə məlumat veriləcək.

## ALLAH RƏHMƏT ELƏSİN!

Daxili İşlər Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin idarə rəisi

**TƏRLAN QƏDİROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin idarə rəisi

**TƏRLAN QƏDİROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsinin kollektivi Kəmalə Hüseynzadəyə atası

**NADİR HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi komitənin Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyevə anası

**RAHİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və icra hakimiyyətinin kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin idarə rəisi

**TƏRLAN QƏDİROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5037
Sifariş 217
Qiyməti 40 qəpik